EVDƏ QAL, SAĞLAM QAL!

Dövlət siyasətinin ana xətti: insan amili, vətəndaş rifahı...



Bax 6

Ərdoğandan xalqa müjdə: 320 milyard kubmetr təbii qaz!




Bax 8



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 144 (6108) 22 avqust 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


# Prezident İlham Əliyev 330/220/110 kilovoltluq "Qobu" elektrik yarımstansiyasının tikintisi ilə tanış olub



Bax 2

## Dövlətimizin başçısı, həmçinin 385 meqavatlıq "Qobu" Elektrik Stansiyasının təməlini qoyub

## Fəxrəddin Altun: "Türkiyəni görməzdən gəlməyə çalışanları narahat etməyə davam edəcəyik"



Bax 8

Tariximizdə bu cür cəhdlər hər zaman Türkiyənin müstəqilliyini və suverenliyini müdafiə edən liderləri hədəf almışdır. Mərhum Adnan Menderesdən rəhmətlik Turqut Özal və Nəcməddin Ərbakana qədər millətin maraqlarını başqalarının maraqlarından üstün tutanlar hədəf olmuşdur. Biz dövlətimizi, liderimizi, müstəqilliyimizi heç kimə qurban vermədik. Bundan sonra da qurban verməri k.

## Lavrovun ittihamları və erməni həyəcanı



Ermənistanın özü üçün "strateji müttəfiq" saydığı Rusiya Tovuz istiqamətində Azərbaycanı qarşıdurmalara təhrik etməkdə İrəvanı günahlandıraraq xarici işlər naziri Lavrovun simasında ermənilərə arxadan daha bir zərbə vurdu. Bu barədə Ermənistan mətbuatı bar-bar bağırır və onların həyəcan siqnallarını da başa düşmək çətin deyil.

Bax 7

## Füzuli və Cəbrayılın işğalından 27 il ötür



*1993-cü il avqustun 23-də Ermənistan silahlı qüvvələri Azərbaycanın Füzuli və Cəbrayıl rayonlarını işğal ediblər. Hər iki rayonun işğalı Azərbaycan iqtisadiyyatına 9 milyard dollara yaxın ziyan vurub.*

Bax 9

## Henrik Larsson yenidən "Barselona"da



"Barselona"nın yeni baş məşqçisi Ronald Kumanın köməkçiləri məlum olub. Katalon klubunun rəsmi saytında yer alan məlumatda deyilir ki, Henrik Larsson və Alfred Şroyder Kataloniya təmsilçisində məşqçi kimi çalışacaqlar. Onların hər ikisi ilə...

Bax 16

## İngiltərə iqtisadiyyatı böyük borc yükü ilə üzləşib

İngiltərənin dövlət borcu pandemiyanın təsiri ilə artaraq ilk dəfə 2 trilyon funt sterlinqi (2,6 trilyon ABŞ dolları) keçib. SİA xəbər verir ki, ümumi dövlət borcu ÜDM-nin 100 faizini aşan İngiltərə iqtisadiyyatı ...



Bax 7

Cozef Bayden ABŞ prezidentliyinə namizəd olmağa razılıq verib



Bax 8

"Milli" yazıqlar...



Bax 13

Dünyaca məşhur ulduz atasını məhkəməyə verdi



Bax 16

# Prezident İlham Əliyev 330/220/110 kilovoltluq “Qobu” elektrik yarımstansiyasının tikintisi ilə tanış olub

*Dövlətimizin başçısı, həmçinin 385 meqavatlıq “Qobu” Elektrik Stansiyasının təməlini qoyub*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 21-də 1000 meqavat yükötürmə gücü olan 330/220/110 kilovoltluq “Qobu” yarımstansiyasının tikintisi ilə tanış olub. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı, həmçinin 385 meqavatlıq “Qobu” Elektrik Stansiyasının təməlini qoyub.***




“Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev dövlətimizin başçısına məlumat verdi ki, 330/220/110 kilovoltluq “Qobu” yarımstansiyasının inşası uğurla gedir. Hasil olunan elektrik enerjisinin enerjisistemə ötürülməsi, Bakının və Abşeron yarımadasının elektrik enerjisi təchizatında 500/330/220 kilovoltluq “Abşeron” yarımstansiyasından asılılığın aradan qaldırılması, istehlakçıların fasiləsiz və dayanıqlı elektrik enerjisi təchizatının təmin edilməsi, respublika ərazisində 330 kilovoltluq dairəvi elektrik təchizat sxeminin yaradılması üçün bu yarımstansiya müstəsna rola malikdir. “Qobu” yarımstansiyasının xüsusi özəlliyi ondan ibarətdir ki, bu, Bakıda tikilən ilk 330 kilovoltluq yarımstansiya olacaq və ən əsası, ölkənin ən strateji yarımstansiyası olan 500 kilovoltluq “Abşeron” yarımstansiyasının əvəzedicisi funksiyasını daşıyacaq. “Qobu” yarımstansiyasının enerjisistemə inteqrasiyasının 2 mərhələdə həyata keçirilməsi nəzərdə tutulur.

Ölkədə enerji təminatının əsaslı şəkildə yaxşılaşdırılması, böyük infrastruktur layihələrin icrası baxımından mühüm işlər görülüb. Lakin elektroenergetika sektorunun daim inkişaf edən sahə olduğunu, əhalinin artım tempini, sənayeləşmə prosesini nəzərə alaraq sonrakı dövrdə generasiya güclərinə tələbatın müəyyənləşdirilməsi və onun vaxtında qarşılanması konkret vəzifə olaraq qarşıya qoyulub. 385 meqavat gücündə “Qobu” Elektrik Stansiyasının generasiya mənbəyi olaraq yaradılması da qarşıya qoyulan mühüm vəzifənin əsas komponentlərindəndir.

Yarımstansiya ilə tanışlıqdan sonra Prezident İlham Əliyev 385 meqavat gücündə “Qobu” Elektrik Stansiyasının təməlini qoydu.

Qeyd edək ki, bu stansiyanın tikintisi yaxın illərdə respublikada fəaliyyətə başlayacaq bir sıra qeyri-neft sənayesi obyektlərinin, o cümlədən Ələt qəsəbəsinin yaxınlığında yaradılacaq “Azad İqtisadi Zona”nın etibarlı elektrik enerjisi ilə təchizatında mühüm rol oynayacaq. “Qobu” layihəsinə dünyanın məşhur şirkətləri yüksək rəy verməklə yanaşı, onun tikintisində yaxından iştirak edirlər.



“Qobu” Enerji layihəsi, o cümlədən 385 meqavat gücündə “Qobu” Elektrik Stansiyasının tikintisi ölkənin enerji sistemində bir mənbədən asılılığı aradan qaldırmaq, Bakı şəhərinin, ümumilikdə Abşeron yarımadasının elektrik enerjisi ilə təchizatının dayanıqlılığını və etibarlılığını maksimum səviyyəyə çatdırmağa hesablanıb. Bu layihənin icrası digər sosial məsələdə də əhəmiyyəti ilə seçilir. Belə ki, “Qobu” Elektrik Stansiyası və “Qobu” yarımstansiyasının işə salınması məşğulluğun artırılmasına töhfə olacaq. Burada 120-dən artıq yeni iş yeri yaradılacaq.



Sonra Prezident İlham Əliyev energetiklərlə görüşüb. Dövlətimizin başçısı görüşdə çıxış edərək bildirib ki, bu gün ölkəmizin elektroenergetika sahəsində növbəti önəmli addım atılır. Dövlətimizin başçısı əmin olduğunu qeyd edib ki, bu stansiyanın tikintisi uğurla gedəcək və nəzərdə tutulmuş vaxtda - 2022-ci ilin əvvəlində tam istifadəyə veriləcək:

“Qobu” Elektrik Stansiyasının təməl daşını qoyduq. Əminəm ki, bu stansiyanın tikintisi uğurla gedəcək və nəzərdə tutulmuş vaxtda - 2022-ci ilin əvvəlində tam istifadəyə veriləcəkdir. Bu, bizim enerji potensialımızın gücləndirilməsi istiqamətində çox önəmli addımdır. Stansiyanın generasiya gücü 385 meqavatdır. Bu, ölkəmizdə tikilən böyük stansiyalar arasında öz yerini tapacaq.

Bütövlükdə bu stansiyanın çox böyük əhəmiyyəti var. Çünki bu stansiyanın timsalında biz müasir Azərbaycanın ümumi inkişafını görürük. Burada ən müasir texnologiyalar tətbiq ediləcəkdir. Dünyanın aparıcı şirkətləri bizimlə bərabər bu stansiyanın inşasında iştirak edəcəkdir. Eyni zamanda, çox güclü beynəlxalq nəzarət olacaq.

Stansiya bütün beynəlxalq ekoloji standartlara tam cavab verir. Ona görə ekoloji baxımdan stansiyanın əhəmiyyəti xüsusi qeyd edilməlidir. Burada şərti yanacağın sərfiyyatı da aşağı səviyyədədir - 260 qram. Energetiklər bilirlər ki, bu, çox aşağı səviyyədir. Bütövlükdə son illərdə görülmüş işlər nəticəsində enerji sistemində şərti yanacağın sərfiyyatı aşağı düşməkdədir. Eyni zamanda, itkilər də azalır. İtkilərin azalmasına gəldikdə, bu stansiyanın əhəmiyyəti ondadır ki, o, Bakının və Abşeron yarımadasının “Mingəçevir” İstilik Elektrik Stansiyasından asılılığını aşağı salacaq və beləliklə, itkilər azalacaq. Çünki “Mingəçevir” İstilik Elektrik Stansiyası Bakıdan 250 kilometr məsafədə yerləşir və əlbəttə ki, enerjinin ötürülməsi istər-istəməz itkilərə gətirib çıxarır. Eyni zamanda, bu stansiyanın əhəmiyyəti ondadır ki, mümkün olan qəzaların fəsadları azalacaq.

Ardı Səh. 3

# Prezident İlham Əliyev 330/220/110 kilovoltluq “Qobu” elektrik yarımstansiyasının tikintisi ilə tanış olub

*Dövlətimizin başçısı, həmçinin 385 meqavatlıq “Qobu” Elektrik Stansiyasının təməlini qoyub*

**Əvvəli-Səh-2**

Çünki hamımız yaxşı xatırlayırıq, iki il bundan əvvəl “Mingəçevir” İstilik Elektrik Stansiyasında baş vermiş qəza nəticəsində demək olar ki, Bakı şəhəri, Abşeron yarımadası və ölkəmizin böyük hissəsi işıqsız qalmışdı. Ona görə bu stansiyanın məhz Abşeron yarımadasında inşa edilməsi bizi qəzalardan da sığortalayacaq.

Eyni zamanda, bildiyiniz kimi, son vaxtlar bərpaolunan enerji növlərinə Azərbaycanda çox böyük əhəmiyyət verilir. Bu istiqamətdə böyük planlarımız var. Energetiklər yaxşı bilirlər ki, bərpaolunan enerji növlərinin genişmiqyaslı inkişafı ənənəvi enerji növlərinin inkişafı ilə bilavasitə bağlıdır. Ona görə bu stansiya enerji dayanıqlılığının təmin edilməsi işində də mühüm rol oynayacaqdır. Bütövlükdə bu stansiyanın enerji sistemimizin təşkilində və gələcək inkişafında çox böyük rolu olacaqdır.

Əlbəttə ki, yeni generasiya güclərinin yaradılması bizim ümumi inkişafımızın təzahürüdür. Çünki enerji sistemimizin müasirləşdirilməsi ölkəmizin ümumi inkişafı ilə uzlaşır və bütün işlər planlı şəkildə aparılır. Bildiyiniz kimi, infrastruktur layihələri arasında elektrik stansiyalarının tikintisi xüsusi yer tutur və deyə bilərəm ki, biz birinci növbədə bu məsələ ilə məşğul olmağa başlamışdıq. Təsadüfi deyil ki, 2004-cü ildə qəbul edilən regionların sosial-iqtisadi inkişafına dair birinci Dövlət Proqramında elektrik stansiyalarının tikintisi xüsusi nəzərə alınmışdır. O vaxtdan bu günə qədər ölkəmizdə 30-dan çox elektrik stansiyası tikilib. Mən onların arasında əlbəttə ki, böyük stansiyaları xüsusilə qeyd etmək istərdim. Çünki bu stansiyalar tikilməsəydi, bu gün biz öz enerji potensialımızı bu səviyyəyə çatdıra bilməzdik. Yadımdadır, birinci regional inkişaf proqramı qəbul olunandan sonra 525 meqavat gücündə “Sumqayıt” Elektrik Stansiyası tikildi. Ondan sonra digər stansiyalar - təxminən 800 meqavat gücündə “Cənub” stansiyası, 400 meqavata yaxın gücü olan “Şimal-2” stansiyası, generasiya gücü 300 meqavat olan “Səngəçal” Elektrik Stansiyası. Ölkəmizin müxtəlif yerlərində modul tipli beş stansiya tikilmişdir ki, o stansiyaların hər birinin generasiya gücü təxminən 90 meqavatdır.





İndi təsəvvür edin, əgər bunlar tikilməsəydi, bu gün biz yenə də əvvəlki illərdəki kimi, idxaldan asılı vəziyyətdə olacaqdıq və öz enerji təhlükəsizliyimizi təmin edə bilməyəcəkdik. Məhz elektroenergetika sahəsinə göstərilən diqqət və ayrılan dövlət sərmayəsi imkan verdi ki, bu gün biz öz tələbatımızı tam şəkildə ödəyirik. Eyni zamanda, bizdə güclü ixrac potensialı yaranmışdır. Daxili tələbatımızın artmasına baxmayaraq, bizim ixrac potensialımız ildən-ilə artır. 2004-cü ildən bu günə qədər bizim iqtisadiyyatımız və o cümlədən sənaye potensialımız üç dəfədən çox artmışdır. Müasir texnologiyaların tətbiqi nəticəsində Azərbaycanda həm generasiya gücləri yaranır, eyni zamanda, itkilər də azalmaqdadır.

Bütün bu müsbət nəticələrə baxmayaraq, onu da qeyd etməliyəm ki, əfsuslar olsun, əvvəlki dövrlərdə tikilmiş stansiyaların, o cümlədən bizim və Cənubi Qafqazın ən böyük stansiyası olan “Mingəçevir” İstilik Elektrik Stansiyasının istismarı dövründə böyük və kobud səhvlər buraxılmışdır. Vaxtında təmir işləri aparılmamışdır. Stansiyaların müasirləşdirilməsi ilə əlaqədar heç bir addım atılmamışdır. Sovet dövründə tikilmiş stansiyalar tənəzzülə uğradı və eyni zamanda, 2004-cü ildən bu günə qədər tikilmiş stansiyalarda da generasiya gücləri böyük dərəcədə itirilmişdir. Məhz səhlənkarlıq, məsuliyyətsizlik və kobud səhvlər nəticəsində iki il bundan əvvəl “Mingəçevir” İstilik Elektrik Stansiyasının yarımstansiyasında qəza baş verdi və böyük fəsadlara gətirib çıxardı. Ondan sonra dərhal operativ tədbirlər görülməyə başlanmışdır. “Azərenerji”nin rəhbərliyi dəyişdirildi və mən göstəriş vermişdim ki, bizim bütün enerji sistemimiz ciddi təftiş edilsin. Bu təftiş nəticəsində çox xoşagəlməz mənzərə üzə çıxdı. Qeyd etdiyim kimi, məhz məsuliyyətsizlik və laqeydlik nəticəsində enerji sistemimizə çox böyük ziyan dəymişdir. Ancaq operativ tədbirlər, görülmüş işlər və ayrılmış vəsait nəticəsində biz cəmi iki il ərzində bu sahədə çox ciddi irəliləyişə nail ola bilmişik və itirilmiş generasiya gücləri bərpa edilmişdir.

Deyə bilərəm ki, 1300 meqavata qədər itirilmiş generasiya gücləri son iki il ərzində mövcud stansiyalarda bərpa edilmişdir. Ən böyük işlər “Mingəçevir” İstilik Elektrik Stansiyasında görülmüşdür. Orada 600 meqavat generasiya gücü bərpa edildi. 2400 meqavat gücündə olan və bu gün tam gücü ilə işləyən bu stansiya bizim əsas enerji mənbəyimizdir. Bu stansiyanın ömrü uzadıldı və o, bundan sonra onilliklər ərzində bizə xidmət göstərəcək.

*Ardı Səh. 4*

# Prezident İlham Əliyev 330/220/110 kilovoltluq "Qobu" elektrik yarımstansiyasının tikintisi ilə tanış olub

*Dövlətimizin başçısı, həmçinin 385 meqavatlıq "Qobu" Elektrik Stansiyasının təməlini qoyub*



Əvvəli-Səh-3

"Cənub" Elektrik Stansiyasının təmiri nəticəsində orada 200 meqavat generasiya gücü bərpa olunmuşdur. Modul tipli stansiyalarda 200 meqavatdan çox generasiya gücü bərpa edildi. "Mingəçevir" və "Şəmkir" su elektrik stansiyalarında 230 meqavat generasiya gücü bərpa edildi. Digər stansiyalarda da işlər aparıldı və bütövlükdə iki il ərzində biz 1300 meqavat itirilmiş gücləri bərpa etdik. Hesab edirəm ki, bu, çox böyük tarixi hadisədir. 1300 meqavat gücündə yeni stansiyaları tikmək bizə milyardlarla dollara başa gələ bilərdi. Ancaq "Azərenerji" bunları çox məhdud büdcə ilə sahmana saldı və bu gün bu stansiyalara yeni həyat verilmişdir.

Beləliklə, son illərdə bu sahədə görülmüş işlər təqdirəlayiqdir. Bu gün təməl daşını qoyduğumuz "Qobu" Elektrik Stansiyası da bizim ümumi enerji potensialımızı gücləndirəcək, ixrac imkanlarımızı genişləndirəcək və eyni zamanda, bundan sonra daxili tələbatı təmin edəcək. Çünki tələbat artır, Azərbaycan əhalisi artır. Müstəqillik dövründə Azərbaycan əhalisi 8 milyondan 10 milyona qalxmışdır və bu meyillər davam edəcək. Azərbaycanda demoqrafik mənzərə çox müsbətdir, hər il əhalimiz artır. Bu, ölkəmizdə görülən işləri əks etdirir. Çünki insanların yaşayış səviyyəsi yaxşılaşır. Ölkəmizdə hökm sürən sabitlik, əmin-amanlıq demoqrafik vəziyyətə bilavasitə təsir edən amillərdəndir.

Eyni zamanda, sənaye istehsalı da artmaqdadır. Hətta bu il qeyri-neft sektorunda sənaye artır. Deyə bilərəm ki, pandemiyanın demək olar bütün ölkələrin iqtisadiyyatına mənfi təsir göstərməsinə baxmayaraq və hətta bəzi inkişaf etmiş ölkələrdə iqtisadi tənəzzül 10-15-20 faiz səviyyəsindədir, Azərbaycanda bu ilin 7 ayında iqtisadi vəziyyət hesab edirəm, qənaətbəxşdir, iqtisadiyyat cəmi 2,8 faiz azalıbdır. Ancaq bunu da nəzərə almalıyıq ki, neftin qiyməti düşüb və bu, bizim iqtisadi inkişafımıza mənfi təsir göstərir. Eyni zamanda, OPEC+ razılaşması nəticəsində hasilatımız da bir qədər azalıb. Ancaq sənaye sahəsində, o cümlədən qeyri-neft sənayesi sahəsində artım var və bu artım bu ilin 7 ayında 13 faizdir. Bax, budur, bugünkü Azərbaycan reallıqları. Bu, bir daha onu deməyə əsas verir ki, bundan sonra da elektrik stansiyalarının tikintisi və mövcud stansiyaların istismar müddətinin uzadılması istiqamətində əlavə addımlar atılmalıdır. Biz öz enerji potensialımızdan maksimum istifadə edirik və etməliyik.

Sevindirici hal ondan ibarətdir ki, bu gün dünyanın ən böyük enerji şirkətləri Azərbaycanda bərpaolunan enerji növlərinin istehsalına maraq göstərir və artıq bu maraq reallaşır. İlin əvvəlində iki böyük beynəlxalq şirkətlə 440 meqavat generasiya gücü olan Günəş və külək elektrik stansiyalarının tikintisi ilə əlaqədar müvafiq sənədlər imzalanmışdır. Ümid edirəm ki, ilin sonuna qədər bütün sənədlərin imzalanması başa çatacaq və stansiyaların tikintisinə start veriləcək. Azərbaycanda 440 meqavat gücündə bərpaolunan enerji növlərinin yaradılması, özü də Azərbaycan dövləti tərəfindən bir manat vəsait qoyulmadan reallaşdırılması bizə olan inamın təzahürüdür, həmçinin Azərbaycanın sabit gələcəyinə, inkişafına olan inamın təzahürüdür. Onu da bildirməliyəm ki, hazırda bizim Energetika Nazirliyi dünyanın bir neçə ən böyük enerji şirkəti ilə danışıqlar aparır. Biz bu şirkətlərlə bərpaolunan yeni Günəş və külək elektrik stansiyalarının tikintisi ilə əlaqədar danışıqları apararkən hesab edirik ki, istədiyimizə nail olacağıq və xarici investisiyalar bu sahəyə daha böyük həcmdə gələcəkdir.



Eyni zamanda, yerli və xarici şirkətlərə bildirmək istərdim ki, biz ənənəvi enerji növlərinin istehsalı ilə əlaqədar işlərimizi davam etdirmək əzmindəyik. Biz xarici və yerli investorları istilik elektrik stansiyalarının tikintisinə dəvət edirik. O cümlədən onları su elektrik stansiyalarının və digər bərpaolunan enerji stansiyalarının tikintisinə cəlb etmək istəyirik. Əgər belə maraq olarsa, hesab edirəm ki, qısa müddət ərzində bu məsələ öz həllini tapa bilər. Çünki bu gün Azərbaycanda investisiya qoyuluşu sahəsində çox böyük işlər görülür, Azərbaycanda biznes mühiti yaxşılaşır. "Doing Business" proqramında biz tarixi nailiyyətlərə çata bilmişik. Dünya Bankı tərəfindən hazırlanan bu reytinq cədvəlində Azərbaycan artıq qabaqcıl yerlərdədir. Eyni zamanda, biz dayanıqlı inkişaf baxımından çox böyük irəliləyişə nail ola bilmişik. BMT-nin Dayanıqlı İnkişaf İndeksinə görə, biz ildən-ilə mövqeyimizi yaxşılaşdırırıq. Ona görə Azərbaycan bu gün xarici sərmayələr üçün çox cəlbedici ölkə olaraq qalır və bu sahə - elektroenergetika sahəsi hesab edirəm ki, çox böyük maraq doğurur və artıq həyat bunu təsdiqləyir.

Bir sözlə, bu gün tam əminliklə deyə bilərəm ki, ölkəmizin elektroenergetika sahəsi öz sürətli inkişaf dövrünü yaşayır və bu, bizim inkişafımızın əsas şərtidir. Çünki hər bir ölkənin iqtisadiyyatı üçün elektroenergetika sahəsi başlıca rol oynayır. Bu sahə inkişaf etməsə, heç bir başqa sahə inkişaf edə bilməz. Ona görə kompleks tədbirlər nəticəsində elektrik stansiyalarının inşası, xarici investorların Azərbaycana gəlişi, yarımstansiyalarda aparılan təmir-bərpa işləri və yeni yarımstansiyaların tikintisi, ötürücü xətlərin təmiri və yeni xətlərin çəkilişi, qonşu ölkələrlə yüksəkgərginlikli elektrik xətlərinin tikintisi və artıq regional əməkdaşlıq üçün zəminin yaradılması da çox önəmlidir. Biz Türkiyə, Gürcüstan, Rusiya və İranla bu sahədə çox uğurlu əməkdaşlıq edirik. Biz artıq yaradılmış enerji dəhlizləri ilə öz elektrik enerjimizi ixrac edə bilirik.

Əlbəttə, əvvəlki illərin mənzərəsi yada düşəndə bir daha görürük ki, bu sahədə tarixi işlər görülüb. Çünki vaxtilə biz idxaldan tam asılı idik. Bizim yeganə generasiya mənbəyimiz olan "Mingəçevir" İstilik Elektrik Stansiyası çox bərbad vəziyyətdə idi. Ona görə bu sahə inkişaf etmədən heç bir inkişafdan söhbət gedə bilməzdi və biz buna nail ola bilmişik.

Onu da bildirməliyəm ki, bu sahədə görülmüş işlər beynəlxalq qurumlar tərəfindən də qiymətləndirilir. Təkcə bir rəqəmi deyə bilərəm ki, Davos Ümumdünya İqtisadi Forumunun hesabatında Azərbaycan elektrik enerjisinin əlçatanlıq indeksinə görə dünyada ikinci yerdədir. Təkcə bunu demək kifayətdir ki, biz bu sahədə əldə edilmiş bütün uğurları əhatə edək və bu, doğrudan da tarixi nailiyyətdir. Dünya miqyasında ikinci yerdə olmaq özlüyündə böyük tarixi nailiyyətdir, xüsusilə infrastruktur layihələrinin ən vacib olan sahəsində - elektroenergetika sahəsində.

Mən bütün bu uğurlar münasibətilə Azərbaycan energetiklərini təbrik edirəm, onlara yeni uğurlar arzulayıram. Əminəm ki, "Qobu" Elektrik Stansiyası vaxtında - 2022-ci ilin əvvəlində istifadəyə veriləcək və biz bu stansiyanın açılışını qeyd edəcəyik.

Daha sonra "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin əməkdaşları Orxan Azadxanov və İbrahim Məmmədov çıxış etdilər. Onlar bildirdilər ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan Azərbaycanın elektroenergetika sistemi Prezident İlham Əliyevin diqqəti sayəsində çox sürətlə inkişaf edib. Onlar elektroenergetikanın inkişafına göstərdiyi diqqətə görə dövlətimizin başçısına energetiklər adından minnətdarlıqlarını bildirdilər, bu sahədə çalışanların daim qayğı ilə əhatə olunduqlarını vurğuladılar və göstərilən yüksək etimadı əməli işləri ilə doğruldacaqlarını dedilər.

# Tural Gəncəliyev: “Ermənistanın İsraildəki səfirinin son müsahibəsində bir daha bu ölkənin riyakar siyasətinin şahidi olduq”

*Ermənistanın İsraildəki səfiri Armen Smbatyanın son müsahibəsində bir daha bu ölkənin riyakar siyasətinin şahidi olduq. A.Smbatyan müsahibədə özünü Azərbaycan və erməni xalqları arasında təmasların qurulmasının tərəfdarı kimi qələmə verməyə çalışıb.*

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının rəhbəri Tural Gəncəliyevin açıqlamasında yer alıb.

Açıqlamada deyilir: “Münaqişənin maraqlı tərəflərindən biri kimi, Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması artıq illərdir ki, işğal altındakı Qarabağ bölgəmizin erməni və azərbaycanlı sakinləri arasındakı dialoqun aparılmasını təklif edir. Lakin azərbaycanafobiyanı dövlət siyasəti səviyyəsinə qaldırmış Ermənistanın siyasi rəhbərliyi nəinki buna mane olur, hətta Dağlıq Qarabağın azərbaycanlı icmasının mövcudluğunu belə utanmazcasına inkar edir.

Əgər A.Smbatyan həqiqətən də iki xalq arasında dialoq tərəfdarıdırsa, onda qoy Dağlıq Qarabağın azərbaycanlı icmasının təklifini dəstəkləsin. Lakin Azərbaycan ərazilərini işğal edərək, bir milyondan çox soydaşımızı etnik təmizləməyə məruz qoymuş təcavüzkar Ermənistanın səfirinin “Münaqişənin həlli bizdən deyil, ATƏT-in Minsk qrupundan asılıdır” deməsi ölkəsinin məsuliyyətdən yaxa qurtarmağa çalışmasının növbəti təzahürüdür.



Münaqişənin bu günə qədər həll olunmamasının səbəbi Ermənistan qoşunlarının qanunsuz olaraq Azərbaycan ərazilərində mövcudluğudur. Ermənistanın öz ordusunu işğal edilmiş ərazilərimizdən çıxarması ilə iki xalq arasında münasibətlər çox asanlıqla bərpa edilər”.

# Xaricdəki azərbaycanlı ziyalılar: “Həmişə dövlətimizin, ordumuzun, əsgərimizin yanındayıq”



Ermənistanın Tovuz təxribatları zamanı ordumuza dəstək olan Azərbaycan diasporu qarşı tərəfə istər keçirilən aksiyalarda, istərsə də qlobal platformalardakı informasiya savaşında layiqli cavab verdi və göstərdi ki, artıq güclü Azərbaycan dövlətinin güclü diasporu var.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, bu gün dünyanın ən nüfuzlu elm ocaqlarında, təhsil mərkəzlərində, böyük şirkətlərdə azərbaycanlı alimlər, mütəxəssislər çalışır, yaşadıqları ölkələrin elminə və mədəniyyətinə xidmət göstərir, eyni zamanda, Azərbaycan həqiqətlərinin təbliğatını aparır, ümummilli məsələlərdə birlik və həmrəylik nümayiş etdirirlər.

### Xaricdə yaşayan minlərlə azərbaycanlı ruhu və qəlbi ilə sizin yanınızdadır

Azərbaycanın Xalq rəssamı, hazırda Almaniyada yaşayan Əşrəf Heybətov deyir ki, Ermənistanın Tovuza hücumu, qəhrəmanlarımızın şəhid olması azərbaycanlıların əksəriyyətinin milli şüurunu oyandırdı, minlərlə insan küçələrə axışıb təcavüzkar düşmənin cavabını verməyi tələb etdi. “Mən soydaşlarımıza demək istəyirəm ki, xaricdə yaşayan minlərlə azərbaycanlı da ruhu və qəlbi ilə sizin yanınızdadır. Əgər müharibə başlasa, əminəm ki, Vətənimizdən uzaqda yaşayan bir çoxumuz gəlib torpaqlarımız uğrunda vuruşacağıq. Ermənistanın iyul təxribatından sonra Azərbaycanda və xaricdə soydaşlarımızın göstərdiyi birlik, həmrəylik, mütəşəkkillik bir daha sübut etdi ki, xalqımız Qarabağı azad etmək əzmindədir.

Möhtərəm Prezident, cənab Ali Baş Komandan, xalq və ordu birləşərək Qarabağ torpaqlarının azad edilməsi və işğalçılardan təmizlənməsini səbirsizliklə gözləyir. Zor və qanla işğal edilmiş torpaqlarımızı təəssüf ki, elə güc və qanla da geri qaytara bilərik. Əgər sabah müharibə başlasa, xalqımız qan axıdılacağını, qurbanlar verəcəyini bilir, amma biz qalib gələcəyik!”, - deyə Xalq rəssamı qeyd edib.

### Azərbaycan diasporu Qarabağ həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında çox böyük rol oynayır

Ukraynada texnika elmləri doktoru, Xarkov Milli Radioelektronika Universitetinin prorektoru, professor Murad Ömərov: “2001-ci ildə Dünya Azərbaycanlılarının I Qurultayında ulu öndər Heydər Əliyevin tövsiyələrini əsas tutaraq Azərbaycan diasporu dünyanın müxtəlif ölkələrində daha yüksək səviyyədə təşkilatlanmağa başladı. 2002-ci ildə yaradılmış Diasporla İş üzrə Dövlət Komitəsi isə bu proseslərə böyük təkan verdi. Artıq 2020-ci ildə püxtələşmiş, təşkilatlanmış Azərbaycan diasporu tarixi Vətəndə gedən proseslərə, Dağlıq Qarabağ probleminə lazımi reaksiya verir və ölkəmizin həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında çox böyük rol oynayır. Tovuz döyüşləri zamanı biz bir daha soydaşlarımızın bu reaksiyasının şahidi olduq. Dünyanın müxtəlif ölkələrində, o cümlədən Amerika və Avropada Azərbaycan diaspor təşkilatlarının çoxsaylı etiraz mitinqləri dünya ictimaiyyətinin diqqətini bu problemə cəlb etdi. Ukraynanın bir neçə böyük şəhərində, o cümlədən Xarkovda Azərbaycanın fəxri konsulluğunun qarşısında aksiya keçirildi. Çıxış edənlər Ermənistan hərbçilərinin Tovuz rayonu ərazisində törətdiyi təxribatı qəti şəkildə pisləyərək Azərbaycan həqiqətlərini Xarkov ictimaiyyətinə çatdırdılar.

Biz əminik ki, dövlətimizin apardığı müdrik siyasət nəticəsində doğma Qarabağımız tezliklə erməni işğalından azad olunacaq. Həmişə dövlətimizin, ordumuzun, əsgərimizin yanındayıq və hər cür dəstək verməyə hazırıq”.

### Qarabağ məsələsi vicdanı olan hər bir azərbaycanlının dərdidir

Türkiyənin Kahramanmaraş Sütçü İmam Universitetinin Siyasi elmlər və beynəlxalq əlaqələr fakültəsinin dekanı, professor Toğrul İsmayıl hesab edir ki, Ermənistanın Azərbaycanın Tovuz rayonuna hücumu bu ölkənin məkrli siyasətini bir daha ortaya qoydu. O deyib: “Belə təxribatçı hücum əslində Ermənistan tərəfinin bölgədə sülh, əməkdaşlıq və əmin-amanlıq yaratmaq əvəzinə vəziyyəti gərginləşdirmək, yeni müharibə məkanları yaratmaq, ən önəmlisi isə öz işğalçı niyyətlərindən əl çəkmədiyini ortaya qoydu. Tovuz rayonu Dağlıq Qarabağdan 100 kilometrlərlə uzaqda yerləşir və onunla birbaşa sərhədi yoxdur. Əgər beynəlxalq ictimaiyyətin fikrini Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinə yönləndirməyə çalışırsa, açıq şəkildə demək lazımdır ki, çox uğursuz addımdır. Düşmənin niyyəti baş tutmadı, çünki Azərbaycan daha hazırlıqlı, daha mütəşəkkil orduya və digər imkanlara sahibdir. Diqqət edirsinizsə, Azərbaycan, sadəcə, bu nöqtədə gərginliyi azaltmağa çalışdı, yəni, bəhanə edib Dağlıq Qarabağ ərazisində geniş hücuma keçmədi. Bu da Azərbaycanın məsələnin sülh yolu ilə həllinə çalışmasının sübutudur.

Harada yaşamağımızdan asılı olmayaraq, beynəlxalq ictimaiyyətdən və ya beynəlxalq hüququn tərəfdarlarından Azərbaycan torpaqlarının azad olunmasını, ölkəmizin ərazi bütövlüyünün bərpasını tələb edirik. Əgər biz bölgədə sülh və sabitlik istəyiriksə, Qarabağ məsələsi həlli təcili olan vacib şərtlərdən biridir. Bu da təbii ki, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Qarabağ problemi ümummilli məsələdir, Qarabağ məsələsi Azərbaycan xalqının ortaq problemidir. Qarabağ məsələsində iqtidar-müxalifət yoxdur. Qarabağ məsələsində əslində Vətəndən uzaqda və ya yaxında yaşamaq məsələsi də yoxdur. Qarabağ məsələsi vicdanı olan hər bir azərbaycanlının dərdidir, problemidir və hamı münaqişənin tezliklə həll olunması üçün əlindən gələni əsirgəməməlidir. Son hadisələr də göstərdi ki, artıq Azərbaycan xalqı məsələnin həllini istəyir. Azərbaycanlılar istər Türkiyədə, istərsə də Rusiyada, Amerika və ya Avropanın müxtəlif ölkələrində dinc etiraz səslərini ucaltdılar. Təbii ki, ermənilərin təxribatçı əməlləri bu ölkələrdə də davam etdi. Amma bir daha təkrar edirik, məsələnin sülh yolu ilə həlli bizim tələbimizdir. Əks halda, inanırıq ki, Azərbaycan dövlətinin bu torpaqları hər vasitə ilə azad etməyə, düşməni o ərazilərdən təmizləməyə haqqı və imkanı vardır”.

# “Azərbaycanın enerji sektorunun yeni mərhələyə qədəm qoyub”

Bu günkü hadisə Azərbaycanın enerji sektorunun inkişafı baxımından vacib hadisələrdən biri hesab olunur. Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin deputatı, iqtisadçı ekspert Vüqar Bayramov deyib.



Millət vəkilinin sözlərinə görə, nəzərə alaq ki, son illər aparılan islahatlar Azərbaycanı enerji idxal edən ölkədən enerji ixrac edən ölkəyə çevirib. “Əgər 2006-cı ildə Azərbaycan illik olaraq 1,7 milyon kvt/saat elektrik enerjisi idxal edirdisə, 2020-ci ildə bu rəqəm artıq Azərbaycanın 1,5 milyon kvt/saata yaxın enerji ixracatına imkan yaradıb. Eyni zamanda istehsalın ötən müddətdə qorunub saxlanması fonunda biz istehlakın azalmasını müşahidə etmişik. İstehsalın azalması da 2 faizinin kəskin aşağı salınması ilə bağlı idi. Beləki, 2006-cı illə müqaisədə enerji sektorunda itgi 42 faizdən 9 faizə qədər aşağı salınıb və bu da təbii ki, tələbin ödənilməsində rasional bir yanaşma idi. Çünki, istehlak azalsa da belə tələb artıb. Ona görə ki, ölkə inkişaf edib, eyni zamanda 2006-cı illə müqaisədə abonentlərin sayı 1,7 milyondan 2,7 milyona qədər artıb ki, bu da 1 milyon əlavə abonentin artması anlamına gəlir. Bu baxımdan tələbin artması fonunda bu sektorda aparılan islahatlar imkan verir ki, Azərbaycan optimallaşdırılmış istehsalla tələbi ödəyə bilsin. İstehlakın azaldılması nəticəsində birinci təbii ki, Azərbaycan üçün həm də ixrac imkanları deməkdir. O baxımdan bu sektorda həyata keçirilən islahatlar növbəti dövrlərdə də Azərbaycanın ixrac imkanlarını genişləndirəcək, ölkəyə valyutanın daxil olmasına imkan yaradacaq. Praktik olaraq biz son illər enerji sektorunda aparılan islahatlar, eyni zamanda bu sektorun infrastrukturunun genişləndirilməsinə xidmət edən tədbirlər fonunda Azərbaycanın enerji sektorunun həm ixrac, eyni zamanda tələbin ödənilməsi baxımından yeni mərhələyə qədəm qoymasını müşahidə edirik”, deyə Vüqar Bayramov bildirib.

***İnam Hacıyev***

# “Karantin rejiminin yenidən sərtləşməsinə qərar vermək üçün ciddi dəyişiklik yoxdur”

Yumşalmaya getmək mərhələli şəkildə həyata keçirilir. Burada məqsəd yoluxmaların sayına, sanitar-epidemioloji vəziyyətə nəzarət etməkdir. AZƏRTAC xəbər verir ki, bunu Nazirlər Kabineti yanında Operativ Qərargahın mətbuat konfransında TƏBİB-in şöbə müdiri Yaqut Qarayeva deyib.

Y.Qarayeva bildirib ki, hazırda karantin rejiminin yenidən sərtləşməsinə qərar vermək üçün ciddi dəyişiklik yoxdur: “Gündəlik yoluxma saylarında artmaya meyilliliyi görürük. Ona görə də bəzi qərarların qəbul olunması müzakirə olunacaq. Hazırda artım olsa da, vəziyyət nəzarət altındadır”.

# Dövlət siyasətinin ana xətti: insan amili, vətəndaş rifahı...

## *İlham Əliyev: "Bizim koronavirusla mübarizədə əsas məqsədimiz insanların sağlamlığıdır"*

***Hər bir ölkənin sosial-iqtisadi inkişafının qiymətləndirilməsində nəzərə alınmalı olan faktorlardan biri də əhalinin sosial rifahı amilidir. Məhz ölkə Prezidenti İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi siyasətin başlıca hədəfləri ölkəmizin zəngin dövlətə çevrilməsi, əhalinin daha yaxşı yaşamasına nail olmaqdan ibarətdir.***

"Sosial dəstək bundan sonra da davam etdiriləcək. Bir daha demək istəyirəm ki, bizim bu xəstəliklə bağlı əsas məqsədimiz insanların sağlamlığıdır. Bununla eyni əhəmiyyət daşıyan insanların sosial vəziyyətidir və biz bunu təmin edirik". Bu fikirləri Prezident İlham Əliyev avqustun 6-da Azərbaycanda koronavirus pandemiyası ilə mübarizə sahəsində görülən tədbirlər və sosial-iqtisadi vəziyyətlə bağlı videoformatda keçirilən müşavirədə çıxışı zamanı deyib.

Qeyd edək ki, dövlət başçısı prezidentlik fəaliyyətinin son 17 ili ərzində daima Azərbaycan xalqının daha firavan və rahat yaşaması üçün bütün imkanlardan istifadə edib. Xüsusilə də son illərə diqqət yetirmək kifayətdir ki, bu reallıqları görəsən. Belə ki, 2019-cu il Azərbaycan insanın sosial həyatında mühüm hadisələrlə iz buraxacaq, dövlətin tarixinə isə sosial sahədə inqilabi islahatlar ili kimi tarixə düşdü. İlin əvvəlindən əhalinin sosial müdafiəsinin gücləndirilməsi, vətəndaşların problemlərinin həlli məqsədilə mühüm addımların atılması, müxtəlif təbəqədən olan insanların sosial müdafiəsinin güclənməsi, xüsusən həssas kateqoriyadan olan vətəndaşların - şəhid ailələrinin, məcburi köçkünlərin, əlillərin, müharibə veteranlarının, pensiyaçıların müavinət və pensiyalarının xeyli dərəcədə artırılmasını nəzərdə tutan fərman və sərəncamlar bu reallığını göstəricisidir. Dövlətin yürütdüyü sosial siyasət xəttini izlədikdə bu prosesin davamlı olduğunu sezmək heç də çətin deyil. Belə ki, ötən il 60 min yeni iş yeri açılıb, minimum əməkhaqqı, minimum pensiya əhəmiyyətli dərəcədə - birinci dəfə 40 faiz, ikinci dəfə də 40 faiz artıb və artıq sentyabr ayından ödəniləcək. Minimum əməkhaqqı təxminən 2 dəfə qaldırılıb, 130 manatdan 250 manata, pensiya isə 116 manatdan 200 manata çatdırılıb. Məcburi köçkünlərə verilən müavinət 50 faiz artıb, problemli kreditlərlə bağlı məsələ həllini tapıb, digər



sosial təşəbbüslər irəli sürülüb. Dövlət büdcəsindən maliyyələşən təşkilatlarda çalışanların da maaşlarında ciddi artımlar baş verib.

2020-ci ilin də ilk ayları uğurlu oldu. Belə ki, 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan və videokonfrans şəklində keçirilən müşavirədə insan amilinin Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasətin mərkəzində dayanması bir daha özünü göstərdi. Müşavirədə Prezident İlham Əliyev qeyd etdi ki, hazırda dünyanı bürüyən koronavirus pandemiyası bütün ölkələrin iqtisadiyyatı üçün böyük problemlər yaradıb. Azərbaycan da dünyanın bir parçası olaraq bu problemlə üz-üzədir. Bunu 2020-ci ilin yanvar-fevral aylarının yekunu ilə birinci rübün yekununu müqayisə etdikdə görmək olur. Belə ki, əgər yanvar-fevral aylarında ümumi daxili məhsul 3 faizə yaxın, qeyri-neft sektorunda isə 7 faizə yaxın artmışdısa, mart ayında koronavirusun yayılması nəticəsində üç ayda bu artımlar müvafiq olaraq 1,1 faiz və 3 faizdən bir qədər artıq olub. Bu da onu göstərir ki, aparılan lazımi tədbirlərə baxmayaraq, pandemiyanın iqtisadiyyata mənfi təsiri göz qabağındadır.

### "Mənim seçimim birmənalıdır - insanların sağlamlığı"

Bütün bunlarla yanaşı, onu da qeyd etmək lazımdır ki, pandemiya ilə əlaqədar Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq ölkəmizdə vaxtında aparılan qabaqlayıcı tədbirlər və düşünülmüş siyasət nəticəsində respublikamızda vəziyyət nəzarət altındadır və insan itkisi minimum həddədir. Azərbaycanda bütün sahələrdə sabitlik təmin edildi, əhalinin məşğulluq problemləri müsbət həllini tapdı və sadə vətəndaşın rifah halı iqtisadi inkişafının əsas prioritetlərindən birinə çevrildi. Koronavirus pandemiyası başlamazdan öncə Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə kölgə iqtisadiyyatına qarşı ciddi tədbirlər görüldü, şəffaflıq təmin edildi və dövlət orqanlarının fəaliyyətində informasiya texnologiyalarının tətbiqi təmin edildi, dövlət xidmətləri sahəsində mərkəzləşdirilmiş elektron məlumat sistemi yaradıldı. Bir sözlə, Prezident Əliyevin rəhbərliyi ilə vaxtında aparılan düzgün siyasət və atılan zəruri addımlar tektonik fəlakət zamanı öz sözünü deyə bildi. Prezident Əliyevin vaxtında apardığı islahatlar və tədbirlər ilk növbədə ölkə vətəndaşlarının rifah halının yaxşılaşdırılmasına nail olmaq idi və fors-major situasiyada bu addımlar öz önəmini göstərdi. Pandemiya zamanı Prezidentin keçirdiyi müşavirələr, vətəndaşlara ayrılan sosial yardım, vergi güzəştləri, sahibkarlara dəstək, sosial həssas qruplara dəstək və atılan digər addımlar Azərbaycan nümunəsinin başlıca göstəricisidir.

### Dövlət öz vətəndaşının sağlamlığını hər şeydən üstün tutur

Xüsusilə son həftələr ölkədə karantin müddətinin uzadılmasına ehtiyacın olması da, məhz dövlətin öz vətəndaşının sağlamlığını hər şeydən üstün tutmasının reallığının təsdiq edən amildir. Pandemiya başlayandan indiyə qədər məhz düşünülmüş siyasət nəticəsində Azərbaycanda vəziyyəti nəzarət altında saxlamaq mümkün olub. Elə karantin müddətinin uzadılması da dövlətin öz vətəndaşlarına daha diqqətli olmasının reallığıdır. Təbii ki, cəmiyyət Prezidentin bu qayğısını görür, anlayır və başa düşür.

Sevindirici haldır ki, artıq koronavirusa qarşı mübarizə tədbirləri effekt verir və müsbət dinamika müşahidə olunur.

Prezident İlham Əliyev avqustun 6-da koronavirusla mübarizə sahəsində görülən tədbirlər və sosial-iqtisadi vəziyyətlə bağlı keçirilən müşavirədə qeyd edib ki, koronavirus xəstəliyi bundan sonra da nəzarət altında saxlanılacaq. Karantin vəziyyəti hamını yorsa da, pandemiyanın fəsadları nəzərə alınmalıdır. Nəzərə alsaq ki, dövlət rəhbərliyi, Operativ Qərargah insanların sağlamlığı və təhlükəsizliyi üçün fasiləsiz işləyir, vətəndaşlar da vəziyyətin ciddiliyini nəzərə almalıdır. Dövlət başçısı diqqətə çadırıb ki, karantin rejimi nə vaxt mümkünsə yumşaldılacaq, necə ki, artıq avqust ayının 5-dən yumşalma olub. Vətəndaşlar nəzərə almalıdır ki, əgər bu yumşalmadan sonra yenə də xəstəlik kəskin artsa, karantin rejimi yenə də sərtləşdiriləcək. Ona görə də, hamı məsuliyyətli olmalı, qaydalara əməl etməli, tibbi maskalardan, dezinfeksiyaedici vasitələrdən istifadə etməli, sosial məsafəni gözləməlidir. belə olarsa, karantin rejimini daha da yumşaldıb normal həyata tez qayıtmaq mümkün ola bilər.

"Biz öz gücümüzə arxalanırıq. Biz bu imkanları xalqımızın istedadı və düşünülmüş siyasət nəticəsində əldə etmişik"

"Bu, sadəcə olaraq, görülmüş işlərin bir hissəsidir. Əgər biz nəzərə alsaq ki, ölkəmizdə çox böyük sosial layihələr həyata keçirilir və 2020-ci ildə bu layihələrin həcmi rekord həddə çatıb"-deyən dövlət başçısı bildirib ki, neftin qiymətinin aşağı düşməsinə baxmayaraq, sosial layihələr öz həllini tapmaqdadır: "Baxmayaraq ki, həm pandemiya, həm də neftin qiymətinin aşağı səviyyədə olması bizim gəlirlərimizə çox mənfi təsir göstərib, ancaq nəzərdə tutulmuş bir dənə də olsun sosial layihə yarımçıq qalmayıb, yaxud da ixtisar edilməyib. Qeyd etməliyəm ki, bu il rekord sayda məcburi köçkün ailəsi evlərlə, mənzillərlə təmin olunacaq. Bu il bu imkandan 7 mindən çox köçkün ailəsi faydalanacaq".

### "Bu il rekord sayda - 1500 şəhid ailəsi, Qarabağ müharibəsi əlili mənzillərlə təmin ediləcəkdir"

Dövlət başçısı keçirilən müşavirədə xüsusilə şəhid və Qarabağ müharibəsi ailələrinin mənzillə təmin edilməsinin həmişə diqqət mərkəzində olduğunu və bundan sonra da dövlətin qayğısının mütəmadi olaraq ediləcəyini də deyib: "Bu il rekord sayda - 1500 şəhid ailəsi, Qarabağ müharibəsi əlili mənzillərlə təmin ediləcəkdir". Ordu sıralarında qüsursuz xidmət etmiş 400-dən çox hərbçi dövlət tərəfindən pulsuz mənzillərlə təmin olunacaq. Yəni, bütövlükdə ən azı 9 minə yaxın ailə bu il dövlət tərəfindən mənzillərlə təmin ediləcəkdir. Bütün bu mənzillər keyfiyyətli mənzillərdir, demək olar ki, onların hamısı yeni tikilmiş binalarda yerləşir. Beləliklə, əgər biz bir ailənin üzvlərini orta hesabla beş nəfər götürsək, deməli, bir il ərzində ölkəmizdə 45 min insan dövlət tərəfindən pulsuz, keyfiyyətli mənzillərlə təmin edilir. Mən tam əminliklə deyə bilərəm ki, adambaşına düşən saya görə bu, dünyada ən yüksək nailiyyətdir".

Dövlət başçısı bütün bu aparılan siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayandığını bildirərək deyib ki, görülən işlər apardığımız düzgün siyasətimizin nəticəsində əldə olunub: "Bu, bizim niyyətimizi, siyasətimizi göstərir. Onu göstərir ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Bütün bunlar reallıqdır və bu reallığı biz özümüz yaradırıq, heç kimdən yardım almadan, maliyyə dəstəyi almaq üçün heç bir beynəlxalq maliyyə qurumuna müraciət etmədən. Baxmayaraq ki, bu gün dünya ölkələrinin mütləq əksəriyyəti maliyyə yardımı üçün müraciət edib. Biz öz gücümüzə arxalanırıq. Biz bu imkanları xalqımızın istedadı və düşünülmüş siyasət nəticəsində əldə etmişik".

Bir sözlə, bütün bunları xalqımız görür. Görülən işlər isə bir daha təsdiq edir ki, Azərbaycan dövləti daim öz vətəndaşına qayğı ilə yanaşır, onun rifahının, sağlamlığının yüksəldilməsini, sosial problemlərinin həllini prioritet vəzifə kimi görür və bu istiqamətdə məqsədyönlü siyasət həyata keçirir.

**RƏFİQƏ KAMALQIZI**

# Lavrovun ittihamları və erməni həyəcanı

***Ermənistanın özü üçün "strateji müttəfiq" saydığı Rusiya Tovuz istiqamətində Azərbaycanı qarşıdurmalara təhrik etməkdə İrəvanı günahlandıraraq xarici işlər naziri Lavrovun simasında ermənilərə arxadan daha bir zərbə vurdu. Bu barədə Ermənistan mətbuatı bar-bar bağırır və onların həyəcan siqnallarını da başa düşmək çətin deyil. Erməni mediası xüsusilə vurğulayır ki, hadisələr erməni cəmiyyətinə Ermənistanın xarici siyasətinə erkən və tam şəkildə yenidən baxılmasının vacibliyini göstərdi. Görəsən, nə oldu bəs?***



Trud qəzetinə verdiyi müsahibədə Rusiya Xarici İşlər Naziri Sergey Lavrov, 12-16 iyul tarixlərində sərhəd qarşıdurması fonunda Ermənistan tərəfinin, Azərbaycanın ixrac boru kəmərlərindən 15 km məsafədə yerləşən köhnə sərhəd keçid məntəqəsinin yenidən qurulması cəhdlərinin bəzi insanların narahatlığına səbəb olduğunu bildirib. Nəzərə çatdırıb ki, bütün bu cəhdlər ən gözlənilməz nəticələrə gətirib çıxaran qarşıdurmar üçün əsas yaradır. Rusiya xarici işlər nazirinin qəzetə müsahibəsi Ermənistanda, eləcə də erməni cəmiyyətində rezonans doğurub. Niyə də doğurmasın axı? Nəzərə alsaq ki, erməni deyilən kiçik bir toplum böyük rus qardaşlarına güvənərək ərköyünlük edib, sərhəddə başından böyük qələt qaynadandan sonra, Lavrovun simasında elə o böyük qardaşın da qulaqburmasını alırsa, bu onlar üçün kifayət qədər rezonans doğuracaq səbəbdir.

Rusiya xarici işlər nazirinin qəzetə müsahibəsinin ardınca erməni mətbuatı yazır ki, gördüyümüz kimi, hər hansı bir diplomatik etiketi kənara qoyaraq Lavrov Ermənistan tərəfini sərhəddə qarşı tərəfi münaqişəyə təhrik etməkdə günahlandırıb. Həmçinin qeyd olunur ki, rəsmi İrəvan sərhəddə eskalasiyanın başlamasından dərhal sonra baş verənlər barədə məlumatı Kremlin diqqətinə çatdırıb və "böyük qardaşa" hesabat da verib ki, özlərini sığortalasınlar. Lakin ermənilərin bu dəfə, necə deyərlər, arzuları ürəklərində qaldı. Moskva onların oyununda fiqur olmamağa qərar verərək, baş verənlərə görə haqlı olaraq bu dəfə erməni tərəfini günahlandırdı. Elə ermənilər də şoka salan bu oldu.

İndi Ermənistanda bu məsələni şərh edənlər iddia edirlər ki, bununla Moskva rusların əvvəldən bəyənmədiyi Ermənistan hakimiyyətindən narazılığını göstərir. Amma reallıqlar tamam başqa məqamlardan xəbər verir. İndi Lavrov da, Rusiyanın başqa təmsilçisi də Ermənistan kimi rəzil bir dövlətə görə Azərbaycan kimi bir qüdrətli dövlətdən üçünü çevirmək niyyətində ola bilməz. İş orasındadır ki, ermənilər məhz bunu hesablamayıblar. Bir çox erməni mətbuatında bəzi erməni şərhçilər, politoloqlar düşünürlər ki, əvvəllər Ermənistanın əvvəlki hakimiyyəti altında, ya sərhəddə, ya da Dağlıq Qarabağda silahlı toqquşmalar baş vermiş olsaydı, Moskva və ya KTMT Azərbaycanı təxribatda açıq şəkildə ittiham etməsəydi belə, atəşkəs rejiminin pozulması və eskalasiya faktını pisləyərək bəyanatlarında neytrallıq saxlamağa çalışardı. Amma heç bir şəkildə münaqişə tərəflərindən biri kimi Ermənistan hədəfə alınmazdı. Maraqlıdır, bunu iddia edən, bəlkə də etiraf edən dırnaqarası politoloqlar bütün bunların fonunda indi Azərbaycan həqiqətlərinin nəyə görə etiraf olunduğunu anlamırlar, yoxsa kordurlar? Doğrudan da əgər bu vaxta qədər ən azından heç bir tərəfi günahlandırmayan Rusiya tərəfi, onun təmsilçisi birdən-birə Ermənistanı haqlı olaraq günahlandırır və qınayırsa, ermənilər bir az daha yaxşı düşünüb nəticə çıxarsınlar, Azərbaycanın üstün mövqeyini, onun Rusiya kimi fövqəl dövlət tərəfindən dolayısı ilə etirafını anlasınlar və yerlərini bilsinlər. Bilsinlər ki, qarşılarında ötən əsrin 90-cı illərindəki Azərbaycan dövləti deyil.

Ermənilər bu qənaətdədirlər ki, Lavrovun müsahibəsində Ermənistan tərəfinə qarşı birbaşa ittihamlar var. Erməni mediası yazır ki, son sərhəd münaqişəsində günahkarın erməni tərəfi olduğu açıq-aşkar bildirilir. Bu həqiqətlərlə barışsalar da, barışmasar da ermənilər həmin həqiqətlərlə üz-üzə dayanmaq məcburiyyətindədirlər. Bu kiçicik toplum, çılız dövlət kimi və hara qədər aldatmaq niyyətindədir axı? Balaca boyu, yaşı ilə o böyüklükdə Rusiyaya papış tikmək bunlara sona qədər müyəssər ola bilməz axı. Biz Kremlə sərhəddə baş verənlər barədə məlumat verdik deyən erməni tərəfi anlamırmı ki, Rusiya kimi böyük bir dövlətin izləyici cihazlarından tutmuş, cəsuslarına, ermənin öz içində qərarlaşan məlumatçı mənbələrinə kimi var? Belə olan halda, yəni sərhəddə təxribatların ermənilər tərəfindən təşkil olunduğunu biləbilə Rusiya bundan sonra nəyinə görə Ermənistanın tərəfini tutmalı, yaxud öz dedikləri kimi, ən azından neytrallıq nümayiş etdirməlidir? Boş-boşuna erməni dığalarının oyuncağına çevrilmək üçünmü?

Digər tərəfdən, sual oluna bilər ki, bunlar sərhəddə təxribat baş verəndən dərhal sonra niyə Kremlə hesabat veriblər? Birincisi, əgər yalandan iddia etdikləri kimi, Azərbaycan tərəfi təxribat törədibsə, bunlar niyə əl-ayağa düşməli idilər? İkincisi, soruşmaq ayıb olmasın, bunlar hesabat verməküçün əvvəlcədən hazırlıqlı idilər ki, təxribat olandan dərhal sonra Kremlə üz tutdular? Üçüncüsü də, axı özünü müstəqil dövlət kimi qələmə verəm bir ölkə niyə Kremlə, yaxud Ağ Evə hesabata qaçır? Əslində, bütün bunlar, bu suallar Ermənistan adlı marianet bir dövlətin mahiyyətini aşkarlamaq üçün yetərlidir. Amma, görünür daha dərin cavablar əldə edilməsi üçün müəyyən zamana ehtiyac duyulur. Lakin erməni tərəfi bilməlidir ki, bu cavablar, məntiqi sonluq, Ermənistan üçün heç də arzuolunan olmayacaq və bu onların son faciələri olacaq.

***İnam Hacıyev***

# Azərbaycan vətəndaşları hansı ölkələrə təyyarə ilə səfər edə bilərlər?

***Mart ayından etibarən Azərbaycanda pandemiya ilə əlaqədar bütün istiqamətlər üzrə uçuşlar dayandırıldı, ancaq iyun ayından reyslərin bərpası başlanıldı. "Azərbaycan Hava Yolları" QSC ilk xüsusi reysini Türkiyənin İstanbul şəhərinə etdi. İlk günlərdə reyslər məhdud sayda olsa da, sonradan AZAL uçuşları gündəlik həyata keçirməyə başladı.***



İstanbulun ardından AZAL Londona və Berlinə də xüsusi reyslər yerinə yetirməyə başladı. Trend Azərbaycandan xaricə xüsusi reyslə səfər edə biləcəyiniz şəhərləri və uçuş qaydalarını təqdim edir:

AZAL İstanbula uçuşları hər gün, Londona hər həftənin cümə axşamları, Berlinə cümə günləri yerinə yetirir. Aviabiletləri aviaşirkətin rəsmi www.azal.az saytından əldə etmək olar. Bakı-İstanbul reysinə aviabiletlər Azərbaycan, Türkiyə və bu ölkəyə gəlmək hüququ olan digər dövlətlərin vətəndaşları tərəfindən əldə edilə bilər.

Bakı-London reysi ilə Böyük Britaniyaya gəlmək hüququ olan sərnişinlər daşına bilər. Bundan əlavə, uçuşdan əvvəl 48 saat ərzində www.gov.uk/provide-journey-contact-details-before-travel-uk saytında onlayn anket doldurulmalıdır. Anket göstərilən müddət ərzində doldurulmadığı təqdirdə, Londonun "Heathrow" hava limanının miqrasiya strukturlarının əməkdaşları sərnişini 100 funt sterlinq məbləğində cərimə edə bilərlər.

Bakı-Berlin reysindən Almaniyada daimi və ya müvəqqəti yaşamaq hüququ olan sərnişinlər (tələbələr daxil olmaqla), habelə Avropa İttifaqı ölkələrinin vətəndaşları yararlana bilərlər.

Xarici ölkələrdə təhsil alan azərbaycanlı tələbələr vətənə qayıtdıqda hər üç istiqamətdə aviabilet alarkən 30% endirimdən yararlana bilər. Güzəştli aviabiletin rəsmiləşdirilməsi proseduru üzrə videotəlimatla, İstanbul-Bakı reysi ilə eyni qaydada, burada tanış ola bilərsiniz: https://youtu.be/HylsY0m9cEM

# Ermənistanda 842 nəfər koronavirusdan ölüb



Ermənistanda son 24 saat ərzində daha 158 nəfər koronavirusa yoluxub. Bununlada ölkədə COVID-19 virusuna yoluxanların sayı 42 min 477 nəfərə çatıb. Bu barədə Ermənistan Səhiyyə Nazirliyinin Xəstəliklərə Nəzarət və onların Profilaktikası Milli Mərkəzi məlumat yayıb.

Bildirilir ki, ölkədə pandemiya qurbanlarının sayı da artaraq 842 nəfərə çatıb, onların da 6-sı son sutka ərzində ölüb. Bundan başqa, daha 253 koronavirus xəstəsi başqa səbəblərdən dünyasını dəyişib. Hazırda Ermənistanda 5 min 689 aktiv koronavirus xəstəsinin olduğu bildirilir.

# İngiltərə iqtisadiyyatı böyük borc yükü ilə üzləşib



İngiltərənin dövlət borcu pandemiyanın təsiri ilə artaraq ilk dəfə 2 trilyon funt sterlinqi (2,6 trilyon ABŞ dolları) keçib. SİA xəbər verir ki, ümumi dövlət borcu ÜDM-nin 100 faizini aşan İngiltərə iqtisadiyyatı 1960-cı illərdən bəri ən böyük borc yükü ilə üzləşib. Qeyd edək ki, İngiltərənin büdcə balansında iyul ayında 26,7 milyard funt sterlinq kəsir yaranmışdı. Borclanma isə maliyyə ilinin ilk 4 ayında 150,5 milyard funt sterlinq səviyyəsində qeydə alınıb.

# Fəxrəddin Altun: “Türkiyəni görməzdən gəlməyə çalışanları narahat etməyə davam edəcəyik”

***Türkiyə Prezident Administrasiyasının İctimaiyyətlə Əlaqələr İdarəsinin rəhbəri Fəxrəddin Altun Türkiyənin müstəqilliyinə, beynəlxalq haqq və hüquqlarına təcavüz edən cəhd və iddialara qarşı aparılan mübarizəni “Dəmirörən” xəbər agentliyinə şərh edib. SİA həmin şərhi təqdim edir.***



***- Co Baydenin açıqlamaları son günlərin ən çox müzakirə olunan gündəm mövzusu oldu. Sizcə, bu açıqlamaları bu qədər əhəmiyyətli edən nə idi?***

- Müstəqillik türk millətinin xarakteridir. Bəlkə, geridə qoyduğumuz 100 ildə ən çox qiyamçılarla və qəyyum mərkəzləri ilə mübarizə aparmışıq. Qurtuluş savaşından 15 iyula qədər müstəqilliyimizə nə vaxt qəsd edilibsə bir olmuşuq.

Co Baydenin ifadələri Türkiyə üçün buna görə əhəmiyyətlidir: 15 iyul xain dövlət çevrilişi cəhdi zamanı uniformalı terrorçuların təlimat aldığı terrorçu lider Amerika Birləşmiş Ştatlarındaydı. Bu kritik dövrdə ABŞ-ın vitse-prezidenti vəzifəsində olan bir siyasətçinin ağzından Türkiyə siyasətini dizayn etmə niyyətinin etiraf edilməsi çox böyük bir hadisədir.Digər tərəfdən bu etiraf Amerika quruluşunun əslində hamının bildiyi ikiüzlülüyünü yenidən təsdiq etmişdir. İllərdir Rusiyanın prezident seçkilərinə müdaxilə etdiyini iddia edənlər indi başqa bir ölkənin daxili siyasətinə müdaxilə edəcəklərini bəyan edirlər.

Tariximizdə bu cür cəhdlər hər zaman Türkiyənin müstəqilliyini və suverenliyini müdafiə edən liderləri hədəf almışdır. Mərhum Adnan Menderesdən rəhmətlik Turqut Özal və Nəcməddin Ərbakana qədər millətin maraqlarını başqalarının maraqlarından üstün tutanlar hədəf olmuşdur. Biz dövlətimizi, liderimizi, müstəqilliyimizi heç kimə qurban vermədik. Bundan sonra da qurban verməzik.

***- Ərdoğana qarşı hücumların arxasında müstəqillik iradəsinə sahib çıxması ola bilərmi?***

- Əlbəttə. Cənab Prezidentimiz Türkiyəni birilərinin oyunlarına alət etsəydi, hüquqlarımızın qəsb olunmasına, terror dəhlizlərinə, muxtariyyət sınaqlarına göz yumsaydı, çox rahat bir iqtidar dövrü keçirərdi. O yolu seçsəydi, bu gün özünə hər fürsətdə hücum edən qərb mediasından təriflər alardı. Ancaq o, yalnız millətin təqdirinə və sevgisinə sahib oldu. Birilərinin bundan narahat olması son dərəcə təbiidir.

Baydenin açıqlamalarına gəlincə, ilk növbədə hədəfdəki müstəqillik iradəsinin necə təcəssüm etdiyinə, Türkiyənin maraqlarının harada olduğuna baxmaq lazımdır. Həm ölkə xaricində, həm də daxilində biriləri “ağzımızın dadı qaçmasın” düşüncəsi ilə ölkəmizin idarə olunmasını istəyir. Hərkəs “Suriyada, Liviyada, Aralıq dənizində, hətta Kiprdə nə işimiz var”? deyənləri çox yaxşı tanıyır. Türkiyə yenidən asılı bir ölkə halına gələrsə, hər şeyin güllük gülüstanlıq olacağına inananlar var. Halbuki dostluq və müttəfiqlik başqa,asılı olmaq başqa şeydir. Siz özünüzə hörmət etməsəniz, heç kimdən hörmət gözləyə bilməzsiniz.

Cənab Prezidentimiz millətə unutdurulmağa çalışılan bu özünəinamı yenidən aşılamışdır. Məhz bu səbəblə Ərdoğanın şəxsinə edilən hücumların əslində Türkiyəyə, müstəqilliyimizə edildiyini görməliyik. Məhz bu səbəbdən Bayden Ərdoğanın devrilməsiylə Türkiyənin yola gətirilməsini bir tutur.

***- Baydenin sözləri buna görə bu qədər vacibdir?***

- Bəli. Baydenin sözlərinin bu qədər reaksiya almasını normal hesab edirəm. Türkiyə artıq dünyanın bir ucunda bir sıra qapalı görüşlərdə hansısa formaya salına biləcək bir ölkə deyil. Bunu istəsələrdə, istəməsələrdə öyrənəcəklər.

***- ABŞ prezidentliyinə namizədin çıxışında sizi ən çox narahat edən məqam nə oldu?***

- Bu çıxışdan narahat olmayan birinin vətənpərvərliyindən şübhə edilməlidir. Mən ən çox müxalifət partiyalarını dəstəkləyən vətəndaşlarımız üçün təəssüfləndim. Əsgərimizi, polisimizi, hətta övladlarımızı şəhid edən PKK terror təşkilatına dövlətcik qurmağa çalışan bir dövlətin prezidentliyə namizədi Türkiyəni təsirsiz hala gətirmək üçün müxalifətə dəstək olacaqlarını söyləyir. Müxalifət partiyalarımız ABŞ-a belə bir siqnal verirsə, bundan yalnız xəcalət duyula bilər.

***- Bayden öz çıxışında belə deyir: “Ərdoğanı çevrilişlə deyil, seçki yolu ilə devirməliyik”. Bu sözlərdən nə başa düşülməlidir?***

- Xalqımızın 15 iyul tarixində prezidentimizin liderliyi ilə tarix yazdığı başa düşülməlidir. ABŞ-ın on illərdir bütün dünyada dövlət çevrilişləri həyata keçirdiyini öz rəsmi qeydlərindən bilirik. Nəticə etibarı ilə, “çevriliş deyil seçim”ifadəsi əsasən Türkiyədə iktidarın ancaq seçimlə dəyişdirilə biləcəyinin qəbul edilməsidir. Bu seçimin yox, məcburiyyətin ifadəsidir. Bu, Gəzi Parkı hadisələrindən, hətta7 fevral böhranından bəri prezidentimizin qətiyyətinin və millətimizin dəstəyi ilə aparılan mübarizənin nəticəsidir. 15 iyulda tankların qarşısında özlərini sipər edən millətin qələbəsidir.

***- Çıxışla bağlı reaksiyalar haqqında nə düşünürsünüz?***

- Əksi düşünülə bilməz. Bu çıxışa”amma,lakin” demədən qarşı çıxmayan kimsə özünü müstəqillik tərəfdarı,anti-imperialist və ya vətənpərvər adlandırmamalıdır. Kənd sakinlərindən tutmuş şəhər sakinlərinə qədər, uşaqlardan tutmuş yaşlı insanlara qədər hamı bu sözlərin nə demək olduğunu çox yaxşı bilir. Bizim nə qlobal qəyyum mərkəzlərinə nə də onların əlbirlərinə veriləcək bir qarış torpağımız, bir tikə çörəyimiz var.

***- Yunanistanın Baş naziri Kiryakos Miçotakisin CNN İnternational-a müsahibəsi zamanı sizin bəyanatınız oxundu. Bu proses necə baş verdi?***

- Bizim hər bir platformada Türkiyənin haqqını, hüququnu müdafiə etmək kimi bir məsuliyyətimiz var. Dünyanın aparıcı təşkilatları ilə daim əlaqə saxlayırıq. Yunanıstan baş nazirinin müsahibəsi barədə məlumat aldıqdan sonra dərhal kanala açıqlama göndərdik. Burada tezislərimizi əsas yönləri ilə izah edərəkteleviziya kanalında oxunmasını istədik. Nəticədə Christiane Amanpour tərəfindən Türkiyənin açıqlaması olaraq oxundu. Türkiyənin həmişə sülh və dialoq tərəfdarı olduğunu, ancaq nə öz hüquqlarımızın, nə də Kipr türklərinin hüquqlarının pozulmasına imkan verməyəcəyimizi açıq şəkildə nümayiş etdirdik. Burada əsas məsələ bəynatın altında kimin adının olması deyil, heç kimin dünyanın ən böyük kanallarından birində Türkiyənin arxasından danışa bilməyəcəyini göstərməkdir. Türkiyənin haqlı tezislərini görməzdən gəlməyə çalışanları narahat etməyə davam edəcəyik.

***Aysel Məmmədova***

# Kamran Əliyev Ankara Baş prokuroru Yüksel Kocamana müraciət edib

Baş prokuror Kamran Əliyev Ankara Baş prokuroru Yüksel Kocamana müraciət edib. Baş Prokurorluqdan SİA-ya daxil olan məlumatda bildirilir ki, son günlər bir sıra kütləvi informasiya vasitələri və sosial media səhifələrində Türkiyənin Ankara şəhərində yaşayan Nailə Həsənovanın 3 azyaşlı övladları ilə birlikdə 8 il qeyri-rəsmi nikahda yaşadığı Türkiyə vətəndaşı Ercan Kapan tərəfindən işgəncə və zorkılığa məruz qalması, onun və azyaşlı övladlarının həyatının təhlükədə olması, bundan başqa uşaqların bioloji anası olduğu halda E.Kapanın rəsmi nikahda olduğu arvadını saxtakarlıq yolu ilə üç uşağının anası olaraq rəsmiləşdirdiyindən övladlarının qəyyumluğunu əldə edə bilməməsi, bununla əlaqədar olaraq onların vəsiqələrini dəyişdirə bilməməsi, bu faktorun təhsil hüquqlarını həyata keçirməyinə və eləcə də tibbi xidmətdən yararlanmalarına mane olması barədə məlumatlar yayılmışdır.



Bununla əlaqədar Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Ankara Cümhuriyyət Baş prokuroru Yüksel Kocamana rəsmi qaydada müraciət edərək qanunun aliliyi prinsipini rəhbər tutmaqla qeyd edilən məsələnin nəzarətə götürülüb araşdırılması istiqamətində müvafiq tədbirlərin görülməsini və Nailə Həsənovanın övladları ilə birlikdə Azərbaycan Respublikasına gəlməsində köməklik göstərilməsini xahiş etmişdir.

# Ərdoğan xalqa müjdə: 320 milyard kubmetr təbii qaz!

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan xalqa vəd etdiyi müjdəni açıqlayıb. SİA-nın məlumatına görə, dövlət başçısı uzun araşdırmalardan sonra Qara dənizdə 320 milyard kubmetr təbii qazın kəşf olunduğunu bildirib. O, bu sevinci türk xalqına Allahın yaşatdığını deyib: “İndi də müjdəmizi sizlərə açıqlamaq istəyirəm. Türkiyə tarixinin ən böyük təbii qaz kəşfini Qara dənizdə həyata keçirdi. “Fatih” gəmimizin apardığı araşdırmalar nəticəsində 320 milyard kubmetr təbii qaz ehtiyatları aşkar edilib. Hədəfimiz 2023-cü ildə Qara dəniz qazını xalqımızın istifadəsinə verməkdir”.




# Cozef Bayden ABŞ prezidentliyinə namizəd olmağa razılıq verib



Cozef Bayden ABŞ prezidenti postuna Demokratik partiyadan namizəd olmağa razıdır. AZƏRTAC yerli KİV-lərə istinadla xəbər verir ki, Cozef Bayden bunu Viskonsin ştatının Miluoki şəhərində virtual şəkildə keçirilən partiya qurultayında elan edib. “ABŞ prezidenti postuna namizədliyi böyük qürur hissi ilə qəbul edirəm”, - deyə Cozef Bayden bildirib. Onun sözlərinə görə, Prezident Donald Trampın fəaliyyəti səbəbindən hazırda ABŞ qorxu, qəzəb və fikir ayrılıqları içərisindədir. Cozef Bayden qələbə qazanacağı təqdirdə ona səs verməyən vətəndaşların maraqları üçün də çalışacağını və partiya mənsubiyyətindən asılı olmayaraq bütün amerikalılara xidmət edəcəyini vəd edib.

# Füzuli və Cəbrayılın işğalından 27 il ötür

***1993-cü il avqustun 23-də Ermənistan silahlı qüvvələri Azərbaycanın Füzuli və Cəbrayıl rayonlarını işğal ediblər. Hər iki rayonun işğalı Azərbaycan iqtisadiyyatına 9 milyard dollara yaxın ziyan vurub. Füzulinin 51 kəndi və rayon mərkəzi ermənilər tərəfindən işğal olunub, 55 min nəfərə yaxın sakin doğma torpaqlarını tərk edib. Füzuli rayonu Qarabağ dağ silsiləsinin cənub-şərq ətəklərindən Araz çayınadək sahəni əhatə edir, Cəbrayıl, Xocavənd, Ağcabədi və Beyləqan rayonları Araz çayı boyunca İranla həmsərhəddir. İşğal nəticəsində, öz ata-baba yurdlarından didərgin düşən insanların şəxsi mülkləri talan olunub, Azərbaycanın tarixi memarlıq abidələri məhv edilib. Füzuli rayonu ərazisində yerləşən, qədim dövrün mədəni abidələri kimi, UNESCO-nun dünya irsi siyahısına düşən Azıx və Tağlar mağaraları ermənilər tərəfindən dağıdılıb.***

Azıxda aşkar olunan maddi-mədəniyyət nümunələri 1981-ci ildə Parisin İnsan Muzeyində "Avropanın ilk sakinləri" adlı sərgidə nümayiş etdirilib.

Yağı düşmən tərəfindən Füzuli rayonundakı uzunömürlü təbiət abidələri - Şərq çinarları da tamamilə məhv edilib, Ərgünəş meşəsində 500 hektar ərazi yandırılıb. Füzuli aqrar rayonu olduğundan, işğal nəticəsində dəyən ziyan milyardlarla manat ölçülür. Rayonun ərazisi 1386 kv.km, əhalisi təxminən 105 min nəfərdir. Rayonun işğaldan azad olunmuş ərazisində 13 qəsəbə və 20 kənd var. Qəsəbələrdən 12-si işğaldan azad olunmuş ərazidə yeni salınıb və məcburi köçkün ailələri, müvəqqəti olaraq, burada yerləşdirilib. Hazırda ərazidə 51 min nəfər məcburi köçkün məskunlaşıb. Füzuli rayonu 1988-ci ildən başlayaraq, mütəmadi olaraq, ermənilərin hücumuna məruz qalıb. İşğal nəticəsində, 1100-dən çox Füzuli sakini şəhid olub, 113 nəfər girov götürülüb, 1450 nəfər müxtəlif dərəcəli əlil olub. Geniş meşə massivləri ilə örtülü olan Dövlətyarlı kəndində ağaclar, bütünlüklə, qırılıb, Qoçəhmədli kənd yolu boyunca ağaclar kütləvi surətdə məhv edilib, Yağlıvənd kəndində kəndarası yolun sağ və sol tərəfindəki böyük yaşıllıqlar tamamilə qırılıb, 2006-2009-cu illər ərzində, rayonun 35000 hektardan artıq ərazisi ermənilər tərəfindən yandırılıb.

Cəbrayılda da üzümçülük, taxılçılıq, baramaçılıq, heyvandarlıq inkişaf etmiş sahələr olduğuna görə, dəyən ziyanın həcmi böyükdür. Bu rayonda 14 mindən çox daşınmaz əmlak, 72 ümumtəhsil məktəbi, 8 xəstəxana, 5 məscid, 2 muzey, 129 tarixi abidə və 149 mədəniyyət ocağı işğal altındadır.

Ermənilər Cəbrayıl rayonunun da mühüm əhəmiyyətə malik tarixi memarlıq abidələrini, yeraltı sərvətlərini, zəngin su mənbələrini dağıdaraq məhv edib, meşələri yandırıb, bu yurdun rəmzinə çevrilən Xan çinarları kəsiblər. Hər iki rayon ağır döyüşlərdə minlərlə şəhid verib. Füzuli rayonundan 8, Cəbrayıl rayonundan isə 6 nəfər erməni işğalçılarına qarşı döyüşlərdə göstərdikləri igidliyə görə Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.

BMT Təhlükəsizlik Şurası işğal edilən Füzuli, Cəbrayıl, Qubadlı və digər rayonlardan erməni silahlı qüvvələrinin qeyd-şərtsiz çıxarılmasını tələb edən 874 saylı qətnamə qəbul etsə də, bu qətnamə də digərləri kimi icra edilməyib və kağız üzərində qalıb.



2016-cı ilin aprel döyüşlərində ordumuz düşmən qüvvələri Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyindən və ətraf ərazilərdən geri çəkilməyə məcbur etdilər. Nəticədə, dinc əhalinin Cocuq Mərcanlı kəndinə qayıdıb öz yurd yerlərində yaşamalarına şərait yaranıb və çox qısa bir vaxtda həmin kənd bərpa edilib və müxtəlif bölgələrdə məcburi köçkün kimi müvəqqəti məskunlaşmış sakinlərin buraya köçürülməsinə başlanılıb. Bu gün Lələ təpənin ələ keçirilməsi ilə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində tam təhlükəsiz həyat şəraiti təmin edilib. Cocuq Mərcanlıda geniş tikinti-quruculuq işləri davam edir. Bu gün bütün ölkə ictimaiyyəti, qaçqın və məcburi köçkünlər, hesab edirlər ki, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən atılan qətiyyətli addımlar növbəti uğurlarımızın və doğma ellərə "Böyük Qayıdış"ın başlanğıcıdır.

Hazırda Füzuli və Cəbrayıldan olan məcburi köçkün soydaşlarımız Azərbaycanın 50-dən çox şəhər və rayonunda məskunlaşıblar. Onlar dövlətin tam qayğısı ilə əhatə olunublar.

***Zümrüd BAYRAMOVA***

# Hikmət Babaoğlunun BDU-nun əməkdaşları və magistrantları ilə onlayn görüşü keçirilib

***Avqustun 21-də Bakı Dövlət Universitetinin (BDU) Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin əməkdaşları və magistrantları ilə Milli Məclisin deputatı, siyasi elmlər doktoru, professor Hikmət Babaoğlunun onlayn görüşü keçirilib. SİA-nın məlumatına görə, Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin dekanı Zeynalabdin Həsənəliyevin moderatorluğu ilə keçirilən görüşdə professor Hikmət Babaoğlu son dövrlərin iki aktual məsələsi olan "Azərbaycan-Türkiyə hərbi-siyasi əməkdaşlığı" və "Pandemiya dövründə Azərbaycan dövlətinin sosial proqramları" mövzularında məruzə ilə çıxış edib.***




Millət vəkili Azərbaycan-Türkiyə münasibətlərinin tarixi kökləri, hazırkı inkişaf dinamikası, perspektivlər, habelə 2020-ci ilin iyul ayında dövlət sərhədinin Tovuz rayonu istiqamətində Ermənistanın hərbi təxribatı, Türkiyənin ölkəmizin haqlı və ədalətli mövqeyini dəstəkləməsi, Azərbaycan-Türkiyə quru qoşunlarının və hərbi hava qüvvələrinin genişmiqyaslı hərbi təlimləri haqqında danışıb.

Hərbi-texniki sahədə də Türkiyənin Azərbaycanın bir nömrəli tərəfdaşına çevrildiyini deyən Hikmət Babaoğlu vurğulayıb ki, Azərbaycan işğal altındakı torpaqlarını azad və ərazi bütövlüyünü bərpa etmək, Qarabağ problemini həll etmək üçün Milli Ordumuzu hər cür ən müasir hərbi texniki avadanlıqlarla təchiz edir və bu proses davam edəcək. Onun sözlərinə görə, tarixi strateji müttəfiqimiz olan Türkiyədən silah alınması aktualdır, həmişə olub, bu gün də var:"Belə də davam edəcək. Əlbəttə ki, bütün iqtisadi, mədəni proseslərdə olduğu kimi, hərbi müstəvidə də əməkdaşlıq davam edəcək. Ali Baş Komandanımızın bildirdiyi kimi, bu əməkdaşlıq strateji xarakter daşıdığından, təbii tarixi müttəfiqliyə söykəndiyindən perspektivdə Türkiyəni Azərbaycanın bir nömrəli hərbi-siyasi tərəfdaşına çevirəcək. Bu ölkəmizin maraqları baxımından mühüm hadisədir".

"12 iyul hadisələrindən sonra yeni strateji həqiqətlər ortaya çıxdı. Bu da ondan ibarətdir ki, baş verən bu qədər hadisələr fonunda Azərbaycanın arxasında onun təbii, tarixi strateji müttəfiqi dayandı. Bu, mürəkkəb hesab edilən dünya siyasətinin çox sadə izahıdır. Bu gün ölkəmizin milli maraqları tarixən olduğu kimi Türkiyə ilə münasibətlərin daha da inkişaf etdirilməsini zəruri edir. Azərbaycan Prezidenti də Türkiyə Milli Müdafiə nazirini qəbul edərkən məhz buna vurğu edərək qardaş ölkənin bütün sahələrdə olduğu kimi, hərbi əməkdaşlıqda da ölkəmizin bir nömrəli tərəfdaşına çevriləcəyini diqqətə çatdırdı",-deyən millət vəkili əlavə edib ki, hazırkı mərhələdə Türkiyə-Azərbaycan ittifaqı təkcə iki ölkənin maraqları baxımından deyil, bütövlükdə regionumuzda sabitliyin və inteqrasiyanın təmin edilməsi üçün son dərəcə önəmlidir. Onun sözlərinə görə, iki ölkə arasında münasibətlər böyük bir geostrateji regionda mühüm hərbi-siyasi tarazlıq yaradır.

Professor Hikmət Babaoğlu son dövrlər dünya gündəminin əsas məsələsinə çevrilən koronavirus pandemiyasının Azərbaycana təsiri, dövlətin bu dövrdə həyata keçirdiyi gördüyü sosial-iqtisadi tədbirlər barədə də fikirlərini diqqətə çatdırıb. Qeyd edib ki, dövlətimiz koronavirus pandemiyası ilə mübarizə çərçivəsində bütün zəruri resursları səfərbər edib və Azərbaycan təcrübəsi dünya miqyasında müsbət nümunə kimi dəyərləndirilir. Onun sözlərinə görə, ölkədə pandemiya şəraitində məşğulluğa və sosial rifaha dəstək məqsədilə fəal siyasət aparılır və bu istiqamətdə məqsədyönlü tədbirlər həyata keçirilir. Bunlarla yanaşı, görülən tədbirlər postpandemiya mərhələsində sosial-iqtisadi məsələlərin həlli və iqtisadiyyatın inkişafı kontekstində strateji əhəmiyyətə malikdir. Şübhəsiz ki, kompleks tədbirlər indiki mərhələdə iqtisadi sabitliyi qorumaq və postpandemiya dövründə iqtisadi fəallığı bərpa etmək üçün real zəmin formalaşdıracaq. Bütün bunlar, eyni zamanda, əhalinin sosial müdafiəsinin gücləndirilməsinə, insanların rifahının yüksəlməsinə xidmət edən addımlar kimi mühüm əhəmiyyətə malikdir.

Məruzədən sonra müzakirələr aparılıb, suallar ətraflı cavablandırılıb. "Microsoft Teams" platforması üzərində təşkil edilmiş görüş iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb.

***Aysel Məmmədova***

# Tavuş vilayətində: yoxsulluq, əlacsızlıq, aqressiya və...

*Uşaqlar vəhşicəsinə döyülür, qadınlara qarşı cinsi zorakılıq hökm sürür, dövlət isə yardım ayırmır*

***Bugünlərdə Ermənsistanın Azərbaycanla həbsərhəd ərazisində - Tovuz rayonu ilə qonşuluqda yerləşən Tavuş vilayətində azyaşlı uşzaqların vəhşicəsinə döyülməsi ilə nəticələnən tükürpədici cinayət ölkə ictimaiyyətini sarsıdıb. SİA Sputnik Armeniya-ya istinadən xəbər verir ki, səs-küy hazırda da davam edir və bu dəfə həmin ailədə yaşayan 5 azyaşlı uşaq zəhərlənmə diaqnozu ilə xəstəxanaya qaldırılıblar. Belə ki, saytın müxbiri sözügedən ailədə olayı dəqiqləşdirmək üçün Tavuşun Xaştarak kəndinə gedib.***




Qeyd olunur ki, Ermənistanın Tavuş vilayətində vəhşicəsinə döyülmüş 4 və 6 yaşlı oğlan uşaqların ailəsi 12 nəfərdən ibarətdir və onlar 1-2 otaqlı evdə yaşayırlar. İstintaq komitəsindən isə bildirilib ki, 4-6 yaşlı oğlan uşaqlarını babaları ağac parçası ilə döyüb.

Vəhşicəsinə döyülən uşaqlar xəstəxanaya aparılıblar, onlardan birinin vəziyyəti isə ağırdır

Sonradan uşaqlar xəstəxanaya aparılıblar, onlardan birinin vəziyyəti isə ağırdır. Faktla bağlı cinayət işi açılıb, baba saxlanılıb. Cümə günü isə bəlli olub ki, həmin ailənin 5 uşağı İrəvanin "Muratsan" xəstəxanasına aparılıblar.

Erməni saytının yazdığına görə, jurnalistlər Azərbaycanla həmsərhəd olan Xaştaq kəndindəki bu ailə haqqında dədiqləşdirmələr aparıblar. Belə ki, 12 nəfərlik ailə üzvlərinin 7-i azyaşlıdır. Ailədə baba Samvel və nənə Emma Q., iki övladları Anuşavan və Anuş B. yaşayır. Onların da iki övladları var,yerdə qalan 5 uşaq isə Mariannanın övladlarıdır. Elə günlər olur ki, çoxuşaqlı ailə günlərdlə ac qalır. Xəstəxanaya qaldırılan uşaqlar da Marianna və Anuşavanın övladlarıdır.

Yazıda qeyd edilir ki, ailə sosial cəhətdən ifrat yoxsuldur. 28 yaşlı Marianna psixiki xəstə olmaqla yanaşı, həm də danıımaqda əziyyət çəkir. O, 17 yaşında ərə gedib və ikinci qrup əlildir. Bir müddət sonra hamilə qadın iki uşaqla ərindən boşanıb və ata evinə geri dönüb. Sonradan isə nikahdankənar iki uşaq dünyaya gətirib.

Marianna həmkəmdlıləri tərəfindən seksual zorakılığa məruz qaldığını iddia edib

"Maraqlıdır ki, Mariannanın birinci əri, 40 yaşlı David Q., sabiq arvadının evində qeydiyyatdadır. Məsələ ondadır ki, ailə boşandıqdan sonra yenidən bir araya gəliblər və qərar veriblər ki, həmin evdə qeydiyyatda olsalar, dövlətdən maddi yardım ala bilərlər. İndi isə yardım ala bilmədiklərinə görə, Davidi evdən çıxarmağa çalışırlar, lakin onun sənədlərində problelər yaranıb və hələ də həmin evdə qeydiyyatdadır", sayt yazır.

Bundan əlavə, 2015-ci ildə Marianna Q. Yalan məlumat verməkdə ittiham olunub. O bildirib ki, zaman-zaman ayrı-ayrı kişilər ona cinsi zorakılıq tətbiq ediblər. Ancaq sonradan məlum olub ki, seksual əlaqələr qarşılıqlı razılaşma ilə baş tutub. Məhkəmə isə onun sağlamlıq qüsurunun və himayəsində azyaşlıların olduğuna görə, azadlıqdan məhrum etməyərək, sınaq dövrü müəyyən edib.

2016-cı ilsə isə banklardan biri Mariannanı məhkəməyə verərək, 120 000 dram (240 dollara yaxın) məbləğdə kreditini ödəmədiyini bildirib. Bank məhkəməni udub və Marianna banka 154 000 dram ödəməlidir.

Baba və nənəyə gəldikdə isə, onların ikisi də işləyirlər. Baba fəhlə, nənə isə məktəbdə xadimə olaraq çalışır.

Ermənistanın bir çox ucqar bölgələrində də eyni vəziyyət hökm sürməkdədir

"Xaştarak kənd məktəbinin direktoru Samvel Simonyan müxbirlə söhbətində bildirib ki, onlarda çalışan qadın məsuliyyətli əməkdaşdır. Arada-bir icazə alıb tez gedir ki, əlil qızına kömək etsin", deyə erməni saytı yazır.

Babaya gəldikdə isə, onun əsəbi olması barədə kənddə sözsöhbətlər gəzir. Hətta iddia olunur ki, uşaqları döydükdən sonra o evdə bişirilən şorbaya zəhər qataraq, onlardan canını qurtarmağa çalışıb.

Beləliklə, fakt budur ki, məhz erməni KİV-ləri də Ermənistanın sərhədyanı kəndlərində vəziyyətin ağır olması barədə zaman-zaman materiallar yayırlar. Xüsusilə, Tavuşdakı bu hadisə erməni ictimaiyyətində qeyriinsani davranışların, ailələrdə kütləvi aqressiyanın, eyni zamanda yoxsul ailələrin başlarına gələn müsibətlərin nə yerdə olduğun qeyd edilməkdədir. Hər halda, Tavuşdakı olay da bunu ehtiva edir və istisna etmək olmaz ki, səfil Ermənistanın bir çox ucqar bölgələrində də eyni vəziyyət hökm sürməkdədir.

***Rövşən RƏSULOV***

## "Sarkisyan yenidən hakimiyyətə gəlmək istəyir"



"Bu gün Nikol Paşinyanın ən böyük rəqiblərindən biri Serj Sarkisyan da daxili auditoriya üçün öz siyasətini həyata keçirərək yenidən hakimiyyətə gəlmək istəyir". Bunu SİA-ya millət vəkili Cavid Osmanov deyib. Onun sözlərinə görə, növbəti dəfə də o, Aprel döyüşlərindən, eyni zamanda, Naxçıvan istiqamətində gedən döyüşlərdən söhbət açaraq təxribat xarakterli bəyanatlar verir: "Birmənalı olaraq Aprel döyüşlərində və Naxçıvan istiqamətində gedən döyüşlərdə Ermənistan tərəfinin uğursuzluqları da qeyd olunub. Eyni zamanda, bu döyüşlərin Tovuz təxribatı ilə guya müqayisə edərək Serj Sarkisyanın dövründəki uğursuzluğun yenidən təkrarlandığını dilə gətirmək niyyətində idilər. Bu, əlbəttə daxili çəkişmələrin nəticəsi idi. Erməni tərəfinin istənilən verdiyi sərsəm bəyanatları çox diqqətlə nəzərə almalıyıq. Əlbəttə, bu bəyanatlar bizim rəsmilər tərəfindən sərt şəkildə cavablandırılmalıdır. Çünki bu, birinci və ya sonuncu təxribat xarakterli bəyanatlar deyil.

Bugünkü hakimiyyətin başında dayanan Nikol Paşinyanın, eyni zamanda, qondarma "Dağlıq Qarabağ Respublikası"nın rəhbərinin zaman-zaman sərsəm bəyanatlarının şahidi oluruq. Əlbəttə, bu gün bizim milli ordumuz çox güclü və qüdrətlidir. Ermənistan tərəfindən verilən açıqlamaların hər biri təxribat xarakteri daşıyır. Bu cür təxribatların qarşısı 2016-cı ilin Aprel döyüşlərində, Naxçıvan istiqamətində və Tovuz istiqamətində gedən döyüşlərdə ordumuz tərəfindən qətiyyətlə alındı.Bu döyüşlərin hər biri sübut etdi ki, Azərbaycan ordusu həqiqətən çox güclü və qüdrətlidir. Sözdə və əməldə olan istənilən təxribatların qarşısını almağa qadirik".

# "Ermənistanın möhkəmlənməsinin qarşısı alınmalı və lokal zərbələr endirilməlidir"

***"May ayından bəri Ermənistanla Azərbaycan arasında Qarabağ danışıqları faktiki dayanıb. Bir neçə dəfə onlayın müzakirələrdən sonra prezident İlham Əliyev haqlı olaraq belə bir onlayn danışıqların mənasız olduğunu açıqladı. Çünki belə bir danışıqlar, yalnız işğalçı ölkənin maraqlarına xidmət edir". Bunu SİA-ya politoloq Məhəmməd Əsədullazadə deyib.***



Politoloqun sözlərinə görə, rəsmi Yerevanın Tovuz təxribatı və Qarabağda məskunlaşdırma siyasəti bütövlükdə münaqişənin həllində hər hansı bir həll variantının üstünən xətt çəkir və danışıqlar üçün yer qoymur: "Haqlı olaraq Azərbaycan tərəfi də Türkiyə ilə birgə hərbi hərərkətə keçərək, müharibə varinatına üstünlük verəcəyi mesajını verdi. Bölgədə situasiya gərgindir. İstənilən an müharibənin başlanması mümkündür. Türkiyə ilə birgə hərbi təlimlər rəsmi Bakının çevik diplomatik uğurudur.

Rusiya tərəfi çalışır ki, yenidən Minsk qrupunun həmsədrlərinin iştirakı ilə danışıqları bərpa etsin. Bu prosesin başında Lavrov durur və bu, Ermənistanın xahişidir. Rusiyanın Xarici işlər naziri Sergey Lavrov danışıqların tez bərpa olunması barədə çalışdıqlarını qeyd edir. Görünür, Kreml Türkiyənin aktiv şəkildə fəaliyyətindən narazıdır. Danışıqları növbəti mərhələdə bərpa etməklə, yenidən manipulyasiyanı davam etdirməyə çalışacaqlar. Azərbaycan bu kimi danışıqlarda yer almamalıdır. Ümumiyyətlə, Rusiya danışıqlarda səmimi deyil. Çünki son bir ayda Ermənistana tonlarla silahsursat göndərib və bu, Azərbycana qarşı təzyiq kimi planlaşdırılıb. Belə olan təqdirdə, Lavrovun bu açıqlaması, yalnız Yerevanın maraqlarına xidmət edir.

Azərbaycan Rusiya XİN rəhbərinin moderatorluğu ilə başladılan danışıqlara getməməli, yalnız Ankara ilə hərəkət edərək, öz təkliflərini masaya qoyub, Ermənistanın bütün şərtlərinə qarşı çıxmalıdır. Rusiya yenidən Qarabağla bağlı ssenarini işə salır. Bu ssenari Azərbaycanın əleyhinədir. Minsk formatı çərçivəsində aparılacaq danışıqlar əvvəlki kimi status-kvonu qorumaq üçün planlaşdırılıb. Dövlət başçısı İlham Əliyev Rusiyanın ölkəmizdə agentura şəbəkəsini zəiflətməklə, Qarabağ məsələsində Türkiyə ilə çox ciddi uğur əldə edə biləcək. Bu istiqamətdə aparılan siyasətə qarşı müəyyən sabotajlar olsa da, prezidentin ciddi uğurlar əldə edəcəyi istisna deyil. Bu arada Ermənistan hakimiyyəti Xankəndi və Əsgəran arasında yeni yol çəkir. İnfrastrukturu təkmilləşdirir və Livandan ermənilərin köçürülməsini təşkil edir. Həmçinin, Rusiyadan Ermənistana daşınan silahların bir hissəsi Tovuzda və bir hissəsi isə, işğal olunmuş ərazilərdə yerləşdirilib. Cəbhə xəttində Ermənistanın möhkəmlənməsinin qarşısı alınmalı və lokal zərbələr endirilməlidir".

***Ceyhun Rasimoğlu***

# ATƏT-in Minsk Qrupu bu illər ərzində özünə fəaliyyətsiz bir qurum imicini formalaşdırmışdır



*Milli Məclisin deputatı Azər Badamovun yap.org.az-a müsahibəsi*

**- Azər müəllim, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə koronavirus pandemiyasına qarşı genişmiqyaslı tədbirlər görülməklə, məşğulluğa və sosial dəstək məqsədilə fəal siyasət aparılır. Siz görülən bu işləri necə xarakterizə edərdiniz?**

- Bu gün dövlətin birinci məqsədi insanların sağlamlıqlarının qorunmasıdır. Pandemiya elan olunanda cənab Prezident İlham Əliyev qeyd etmişdi ki, biz iki amil qarşısında seçim etməliyik. Birincisi, iqtisadiyyatın qorunmasıdır, ikincisi isə insanların sağlamlığının qorunmasıdır. Təbii ki, biz insanların sağlamlığını önə çəkdik. Ölkə başçısının sərəncamı ilə Nazirlər Kabineti yanında Operativ Qərargah yaradıldı. Operativ Qərargaha infeksiyaya gündəlik yoluxmanın dinamikasını təhlil edərək qərarlar vermək tapşırığı verildi. Prezident həm də ölkə iqtisadiyyatına pandemiyanın təsirlərinin azaldılması üçün tədbirlərin hazırlanmasına işçi qrupların yaradılması ilə bağlı sərəncam verdi. Bu sərəncama uyğun olaraq müxtəlif sahələri təmsil edən mütəxəssislərdən ibarət 4 işçi qrupu yaradıldı. İşçi qruplar pandemiyanın təsirlərini azaldılmasına xidmət edəcək 3 istiqamət üzrə dövlət dəstəyi Tədbirləri planı hazırladı. Bu Tədbirlər planı iqtisadi fəallığın qorunmasına və sahibakarlığa dövlət dəstəyi, məşğulluğa və sosial rifaha dövlət dəstəyi, maliyyə və makroiqtisadi sabitliyinin qorunmasına dövlət dəstəyi göstərilməsindən ibarət oldu. Ümumiyyətlə bu müddət ərzində 5 milyona yaxın insan dövlət dəstəyi tədbirlərindən yararlanmışdır və bu proqramların icrasına 3.5 milyard manat vəsait nəzərdə tutuldu. Bu tədbirlər proqramının ölkə əhalisinə birbaşa təsir etdiyi məşğulluğa və sosial rifaha dövlət dəstəyi istiqamətidir. Bu dövlət dəstəyi tədbiri əsasən 12 istiqaməti özündə ehtiva etdi. Məşğulluğa və sosial rifaha dəstəyin göstərilməsi ölkədə iş yerlərinin qorunub saxlanılmasına, əhalinin aztəminatlı təbəqəsinin rifahının pisləşməməsinə hesablanmışdır. Məşğulluğa və sosial rifaha dövlət dəstəyi tədbirləri çərçivəsində 910 min dövlət sektorunda çalışan şəxslərin 80%-nə evdə oturmaqla əmək haqqı ödənilir, özəl sektorda çalışan 760 min insanın əmək haqqının ödənilməsinə dövlət dəstəyi göstərilmişdir. 2 miyondan çox insanın pensiya və müavinətlərlə təminatı davamlı olmuşdur. May-iyun aylarında 600 min, iyul ayında isə 290 nəfər işsiz və qeyri formal iş fəaliyyəti ilə məşğul olan şəxsə 190 manat birdəfəlik müavinət ödənilmişdir. Özünəməşğulluq proqramın əhatə dairəsi bu ilin sonuna qədər 12 min ailəyə çatdırılması nəzərdə tutulmuş və hal-hazırda həmin ailələrin maarifləndirilməsi və aktivlərlə təmin edilməsi prosesi davam edir. Ünvanlı sosial yardımın verilməsinin sadələşdirilməsi üçün qanunvericilikdə dəyişiklik olundu və ünvanlı sosial yardım alanların əhatə dairəsi genişləndirilərək 85 min şəxsə çatdırılması nəzərdə tutuldu. İşsizlikdən sığorta alanların sayı 20 minə çatdırıldı və müavinətlərin ödəniş vaxtı bitmiş şəxslərə də ödənişlər davam etdirildi. 65 yaşdan yuxarı 15000 nəfərə sosial xidmət göstərildi və imkansız ailələrə 100 mindən çox ailəyə 200 minə yaxın ərzaq payları göndərildi. Bununla yanaşı ilin əvvəlindən nəzərdə tutulmuş bütün sosial proqramlar uğurla icra olunmaqdadır. Bu il 7 min köçkün və qaçqın ailəsi, 1500 Qarabağ şəhidi və əlili üçün, 400 nəfər 20 il qüsursuz orduda xidmət keçmiş şəxslərə mənzillərin verilməsi uğurla davam etdirilir. Qısa olaraq qeyd etmək istəyirəm ki, cənab Prezidentin rəhbərliyi ilə koronavirusa qarşı mübarizə uğurla aparılır və insanların sosial rifahına xidmət edəcək tədbirlərin əhatə dairəsi genişdir və davamlıdır. Bu, Prezdentin apardığı dövlət siyasətinin təməlində insan amilinin öndə olduğunun bir daha göstəricisidir.

**- Ölkəmizdə COVİD-19 pandemiyası ilə mübarizə tədbirləri çərçivəsində əhali qrupları arasında seroloji testlərin keçirilməsinə başlanılacaq. Seroloji testlərin keçirilməsi pandemiya ilə mübarizə strategiyasının vacib bir parçası olduğundan, Azərbaycan hökuməti tərəfindən bu istiqamətdə atılan addımlar atılır. Atılan bu addımı necə dəyərləndirirsiniz?**

- Danışmaqdan əvvəlcə seroloji test nədirsə onu aydınlaşdıraq. Seroloji test- infeksion və ya qan yolu ilə yoluxma şübhəsi olduqda tez alınan qan testidir. Digər testlər bir virusun müəyyənləşdirilməsində həftələrdən bir neçə günə qədər nəticə verirsə, seroloji test sayəsində bir neçə saat ərzində nəticə əldə edilir. Seroloji testlərdə məlum anticisimləri istifadə edərək, onlara qarşı anticisimlər axtarılır və xəstəliyə səbəb olan mikroorqanizmlərin antigenləri və quruluşu araşdırılır. Seroloji testlər koronavirus pandemiyası ilə mübarizədə vacibdir. Çünki, bütün insanlar infeksiyaya yoluxmanı ağır simptomlarla keçirmir. Kifayət qədər bu xəstəliyi gizli keçirən insanlar da mövcuddur. Bu testlər vasitəsilə cəmiyyətdə bədənində koronavirusa qarşı imuniteti olan insanların sayını müəyyənləşdirmək mümkündür. Hətta ola bilər ki, ölkəmizin hər hansı bölgəsində yaşayan insanlarda koronavirusa qarşı imunitet mövcuddur. Belə olan halda həmin regionu qapalı saxlamağın əhəmiyyəti yoxdur. Seroloji testlərin aparılmasına başlanması bir daha dövlətin insanların sağlamlıqlarına verdiyi yüksək dəyərin göstəricisi hesab edirəm.

**- BBC-nin “Hard Talk” verilişində Ermənistan Baş naziri Nikol Paşinyan həm ingilis dilini pis bilməsi, həm də kəsərli suallar qarşısında mövqeyinin zəif olması ilə acınacaqlı duruma düşdü. Maraqlıdır, adi jurnalistn qarşısında belə aciz duruma düşən Paşinyan, görəsən dövlət və hökumət başçıları ilə danışıqlar formatında hansı biabırçı vəziyyətə düşür?**

- “Hard Talk” verilişi Paşinyan üçün həqiqətən çətin söhbət olmuşdur. Çünki, Paşinyan nə yaşadığı ölkəsinin tarixini bilmir, nə ingilis dilində keyfiyyətli danışa bilmir, nə də onda rəhbərə xas xarizma yoxdur. Paşinyanın siması küçə adamının obrazıdır.. Onunla söhbət edən nə jurnalist, nə də hökumət başçısı onu ciddiyə almır. Paşinyan həm də verilişdə jurnalistin suallara belə obyektiv yanaşacağını gözləmirdi. Aparıcı suallarda konkret idi, Paşinyan isə savadsız və qeyri peşəkar. Aparıcı Paşinyana ünvanladığı suallarda Ermənistanın Azərbaycana qarşı təcavüzkar işğalçı siyasəti, Ermənistan hakimiyyətinin Azərbaycan xalqından üzr istəməsi kimi məsələlərə yer vermişdi. Paşinyan isə cavablardan yayınmağa çalışdı. Verilişdə Paşinyanın düşdüyü rəzil durum dünya mətbuatının uzun müddət gülüş mövzusu oldu.

**- Dağlıq Qarabağdakı qondarma rejimin başçısı Araik Aratunyan Gəncəni vurmaqla hədələyib. Görəsən ATƏT Minsk qrupunun həmsədrləri bu bəyanata niyə münasibət bildirmirlər? Turist diplomatiyasının nümayəndələri hələ yay tətilindən qayıtmayıblar?**

- Qondarma rejimin qondarma rəhbərinin hədəsi əslində özlərinin gücsüzlüyündən, zəifliyindən xəbər verir. Əsasən güclü ölkələr və iradəli rəhbərlər haranısa vurmaq istəyəndə səsini çıxartmadan öz işini görür. Bu, həyatda da belədir. Qondarma rejimin qondarma rəhbəri Arak Arutunyanın hədəsi ancaq daxili auditoriyası üçün hesablanmışdır. Çünki qondarma rejimdə yaşayan ermənilər dünyadan təcrid olunublar və inkişafdan qalıblar. Bu rejim ancaq xaricdən gələn ianələrlə yaşayır. Orda yaşayan sadə ermənilər görürlər ki, Azərbaycan inkişaf edir, dövlət tolerant siyasət yürüdür, bütün vətəndaşlar firavan yaşayırlar və öz qondarma rəhbərlərindən narazıdırlar. İşğal altında yaşayan sadə ermənilər də sülh şəraitində Azərbaycanın tərkibində yaşamağa hazırdırlar. Amma, qondarma rejimin rəhbərləri işğal altında olan ərazilər nəzarətsiz olduğundan oralarda narkotiklər istehsal edir, terrorizmin yuvasına döndərmişdir. Arutunyanın hədəsi birinci növbədə qondarma rejimdə yaşayan narazı ermənilər sakitləşdirmək məqsədi daşıyır. O göstərmək istəyir ki, biz belə gücə malikik. İkincisi, Arutunyanın hədəsi Paşinyan rejimindən cana gəlmiş Ermənistan erməniləri üçün hesablanmışdır. Bu gün ermənilər qondarma rejimin işğalı altındakı Azərbaycan torpaqlarına öz övladlarını hərbi xidmətə göndərmək istəmirlər. Çünki, bilirlər ki, övladları Paşinyanın təxribatlarının qurbanına çevriləcəkdir. Bu gün Ermənistanda Qarabağda ölmüş əsgərlərin analarının etiraz dalğası genişlənməkdədir. Hətta Ermənistanın sadə ermənilərin “Qarabağ bizim torpağımız deyil, niyə övladlarımız orada ölməlidir” ifadələrinin işlədildiyini görürük. Amma real vəziyyət ondan ibarətdir ki, bu gün Azərbaycan Silahlı Qüvvələri ən müasir hava hücumundan müdafiə sistemləri ilə təchiz olunmuşdur. Bu hərbi texnikamız Azərbaycanın səması üzərində uçan quşları da müəyyən etmək imkanına malikdir. Son günlər ermənilərin gizli kəşfiyyat məqsədilə torpaqlarımızın üzərində məhv etdiyimiz PUA-lar da buna sübutdur. Həm də Azərbaycan Silahlı Qüvvələri hədəfi dəqiq vura bilən raketlərlə təchiz olunmuşdur və düşmənin bir təxribatına 10 qat cavab vermək imkanına malikdir. Bunu ermənilər daha yaxşı bilirlər və ona görə hədələrdə olan cəhdlərə əl ata bilmirlər. Burda bir maraqlı məqam da var ki, münaqişəni danışıqlar yolu ilə həll edilməsi məqsədilə yaradılmış ATƏT-in Minsk Qrupu səsini çıxartmır. Ümumiyyətlə Minsk Qrupu bu illər ərzində özünə fəaliyyətsiz bir qurum imicini formalaşdırmışdır. Bu qrupun həmsədrləri təmas xəttində toqquşmalar olanda və Azərbaycan ordusu torpaqlarını azad etməyə başlayanda səsini çıxardırlar. Qalan vaxtı arada bir bölgəyə səfər edir, turistlər kimi yeyib-içib çıxıb gedirlər. Amma, işğalçı tərəfə hər hansı konkret bir təzyiq mexanizmindən istifadə etdiyini, erməniyə qaşında çöp var dediyini görməmişik. Təbii ki, bu ikili standartların göstəricisidir.




## Hazırda 34 xəstəxanada COVID-19 xəstələri müalicə edilir

Hazırda 15 minə yaxın həkim və tibb işçisi COVID-19 xəstəliyi ilə mübarizədə iştirak edir. Onlardan 2,5-3 min nəfəri gündəlik olaraq bu işlə məşğul olur. AZƏRTAC xəbər verir ki, bu barədə Nazirlər Kabineti yanında Operativ Qərargahın avqustun 21-də keçirdiyi mətbuat konfransında Cəlilabad rayon Mərkəzi Xəstəxanasının direktoru Elnur Azadxanov məlumat verib. Onun dediyinə görə, İndiyədək 51 xəstəxanada COVID-19 xəstələri müalicə edilib və hazırda 34 xəstəxanada iş davam etdirilir.

## Azərbaycanda koronavirus infeksiyasından daha 171 nəfər sağalıb

***Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 171 nəfər sağalıb, 162 yoluxma faktı qeydə alınıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 2 nəfər vəfat edib.***




Hazırkı dövrədək ölkəmizdə 34 min 921 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 32 min 682 nəfər müalicə olunaraq sağalıb, 512 nəfər vəfat edib. Aktiv xəstə sayı 1727 nəfərdir. Ötən müddət ərzində 861 min 788 test aparılıb. Bugünkü test sayı isə 5986-dır.

# Erməni müxalifətçisi belaruslara hansı xəbərdarlığı etdi?

***Artur Danilelyan: “Azadlıq və demokratiya fonunda gələnlərin ardınca həbsxanalarda aclıq edən insanlar ölməyə başladılar, hakimiyyətyönlü fəallar jurnalistlərə və bloqerlərə hücumlar etdilər”***

Belarusda nə baş verirsə, düz iki il əvvəl Ermənistanda da yaşanmışdı: eyni texnologiyalar, həmin təbliğat, həmin ideyalar”. SİA tert.am-a istinadən xəbər verir ki, bu barədə Ermənistanın müxalifətyönlü “Adekvad” partiyasının sədri Artur Danielyan bildirib.

“Mən ittiham etməyə, kimi isə aksiyalarda iştirak etməkdən çəkindirməyə hazırlaşmıram. Mən sadəcə, Ermənistanda nəyin baş verdiyini bölüşmək və bütün bunların əvvəl-axır gələcəkdə, hadisələrdən asılı olmayaraq Belarusda da baş verəcəyini demək istəyirəm”, qeyd edən Danielyan Ermənistanın baş naziri Paşinyanı nəzərdə tutaraq xatırladıb ki, parlament seçkilərində çətinliklə 3-3,5% səs yığan və mitinqində uzağı 120 nəfər adam yığa bilən insan (yəni Paşinyan) öz yürüşünü Gümrü və İrəvandan başladı və paytaxta çatarkən, texnologiyalar və təbliğat sayəsində ona qoşulan insanların sayı həndəsi sürətlə artmağa başladı, hansı ki, indi Belarusda bu vasitədən istifadə edirlər.

“Adekvad”ın lideri: “Bu təbliğat fonunda illərlə hökumətə, ölkəyə, dövlətə qarşı nifrət yığılırdı ki, nəticədə 2018-ci ildə antikonstitusion çevriliş baş verdi”

“Adekvad”ın liderinə görə, demək olmazdı ki, Ermənistanda narazı kütlələr olmayıb, lakin həmin narazılıqlar müəyyən strukturlara eləcə də mediaya sızıdırdı.

O qeyd edir ki, Ermənistanda həmin vaxtlar beynəlxalq təşkilatların hesablamalarına əsasən, korrupsiya



göstəricisi ikinci yerdə idi, lakin korrupsiya qavrayışı digər ölkələrlə müqayisədə çox yüksək idi, hansı ki, həmin ölkələrdə korrupsiya vəziyyəti daha pis idi.

Danielyan bunu həm təbliğat, həm də ölkənin dağılması, insanların mühacirət etdiyinə inamlarının olması ilə bağlayır. “Əslinə qalanda bu, doğru deyil. Postsovet xristian ölkələri arasında mühacirət göstəricilərinə görə də biz ikinci yerdəydik, bizdən üstün göstərici isə yalnız Belarus idi”, deyə o aydınlıq gətirib.

SİTAT: “Bu təbliğat fonunda illərlə hökumətə, ölkəyə, dövlətə qarşı nifrət yığılırdı ki, nəticədə 2018-ci ildə antikonstitusion çevriliş baş verdi. Azadlıq və demokratiya fonunda gələnlərin ardınca həbsxanalarda aclıq edən insanlar ölməyə başladılar, hakimiyyətyönlü fəallar jurnalistlərə və bloqerlərə hücumlar etdilər və bütün bunların qarşılığında hüquqmühafizə orqanları heç bir reaksiya göstərmədilər.”

Danielyan: “Bu hökumətin istənilən siyasi opponenti hüquq mühafizəçiləri tərəfindən törədilə biləcək terrora hazır olmalıdır”

“Adekvat” sədri buna misal olaraq elə özü ilə bağlı hadisəni - vitse-spikerlə insidentini və atasına qarşı qaldırılan cinayət işini xatırladıb: “Bu hökumətin istənilən siyasi opponenti hüquq mühafizəçiləri tərəfindən törədilə biləcək terrora hazır olmalıdır. Belə “azad və demokratik” ölkədə təsiretmə səviyyəsi ölçüyəgəlməzdir. Ermənistanda hakimiyyət dəyişikliyindən sonra yaxşıya doğru heç nə dəyişməyib. Dəyişməyəcəkdi də. Çünki bütün çevriliş prosesinin əsasında “Ermənistanda korrupsiya çiçəklənir, mühacirət artır və oliqarxlar xalqın hesabına varlanırlar” kimi yalan dayanıb. Bəli, bizdə problemlər var idi, lakin bənzər məsələlərlə olan ölkələrlə müqayisədə bizdə yaxşı nəticələr də mövcud idi. Bundan əlavə, bizim belarus qardaşlarımızın yanlarında yaxşı nümunə var - xalqın populist şüarları ilə çevriliş etdiyi Ukrayna...”

Erməni müxalifətçi: “İnternet sayəsində əhalidə belə bir illüziya yaranıb ki, heç kimə məlum olmayan qadın ölkəni 40 il rəhbər vəzifələrdə işləmiş kolxozçudan yaxşı idarə edə biləcəkmiş”

Erməni siyasətçi küçələrə axışan belaruslara xəbərdarlıq etməyi də unutmayıb: “Mən sizləri pəjmürdə etməli olacağam. Etiraz aksiyaları nəticələrinin necə başa çatmasından asılı olmayaraq, siz bütün göstəricilərinizə görə geriyə sürüklənəcəksiniz. Ona görə ki, sizin də bizim də problemlərimizin kökü ondadır ki, biz okeanın o tayında müəyyən edilmiş oyun qaydaları ilə oynayırıq və bu oyun mənasızdır, çünki istənilən halda qalibləri onlar özləri seçirlər”.

Danielyan həmçinin bildirib ki, o Lukaşenkonu müdafiə etmək fikrində deyil: “Bu adam 26 ildir hakimiyyətdədir və ötən müddət ərzində siyasi institusional islahatlar keçirmək qərarına gəlmədi. O, texnokratik idarəçiliyə keçmədi və demokratik yolla getməyə qərar verdi və bu proses hazırda -21-ci əsrdə virtual reallıq açarının okeanın o tayında rəhbərlik edənlərin əlində olduğu vaxtda gedir. İnternet sayəsində əhalidə belə bir illüziya yaranıb ki, heç kimə məlum olmayan qadın ölkəni 40 il rəhbər vəzifələrdə işləmiş kolxozçudan yaxşı idarə edə biləcəkmiş”.

# “Ermənistan işğalçılıq siyasətindən əl çəkmir”

***“Prezident İlham Əliyevin “Valday” Beynəlxalq Diskussiya Klubu kimi mötəbər bir forumun tribunasından “Qarabağ Azərbaycandır və nida işarəsi!” bəyanatını, MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında tutarlı faktlara əsaslanan nitqi, Münhen Təhlükəsizlik Konfransı çərçivəsində baş tutan debatda səsləndirdiyi tutarlı cavabları dünya ictimaiyyətində Ermənistanın işğalçı siyasəti haqqında aydın fikir yaradıb.***

Bu günlərdə beynlxalq aləm Britaniyanın nüfuzlu BBC televiziyasının “Hard Talk” (“Çətin söhbət”) proqramında Ermənistanın baş nazirinin, daha sonra 2018-ci ildə istefa verdikdən sonra aprel döyüşləri barədə ilk mətbuat konfransını çağıran, əlləri minlərlə günahsız insanların qanına bulaşan Ermənistanın keçmiş prezidenti Serj Sarkisyanın dedikləri işğalçı hökumətin yürütdüyü siyasətin əsas qayəsinin təcavüzkarlıq, işğalçılıq, özgə malına göz tikmək olduğunu göstərdi”. SİA-nın verdiyi məlumata görə, bunu açıqlamasında Milli Məclisin deputatı Pərvin Kərimzadə bildirib.

Millət vəkili qeyd edib ki, BBC-nin aparıcısı Stefan Sackurun həqiqətə, dəqiq faktlara söykənən sualları qarşısında Ermənistanın baş nazirinin məntiqsiz, cəfəngiyatla, yalanla dolu sərsəm iddiaları gülünc səsləndi. İşğalçı dövlətin rəhbəri özünü növbəti dəfə dünya ictimaiyyətinin gözü önündə rüsvay etdi. Dinc insanların qətlə yetirilməsində, Xocalı soyqırımının törədilməsində birbaşa cavabdeh olan Serj Sarkisyanın isə törətdiyi əməllərə bəraət qazandıraraq, 50 min tondan çox silah-sursatın, hərbi texnikanın işğalçı dövlətə hədiyyə etməsindən ağız dolusu danışması Ermənistanın işğalçı siyasətinin təsdiqidir.



BBC-nin aparıcısı ilə “çətin söhbət”ə gedən Paşinyan qlobal informasiya savaşında özü də istəmədən rəhbərlik etdiyi işğalçı dövlətin siyasi iflasını nümayiş etdirdi. 30 ilə yaxındır ki, ölkəmizin ərazilərini hərbi işğal altında saxlayan Ermənistanın baş nazirinin son müsahibəsində veriliş boyu riyakarlığın son həddi kimi yadda qaldı. Aciz, rəzil duruma düşən Paşinyan ənənəsinə sadiq qalaraq sınıq-salxaq ingiliscə rabitəsiz cavabları ilə işğalçı siyasətinə haqq qazandırmağa çalışıb, hələ siyasətçi kimi formalaşmadığını yenidən gündəmə gətirdi.

“Sizin idarəetmənizdə bir çox insanların gözlədiyi kimi hər hansı bir dəyişiklik olmadı. Siz Azərbaycan ilə sülhə nail olmaq üçün hakimiyyətə gəldiniz. Lakin ötən ay biz yeni toqquşma, yeni münaqişə gördük” - Stiven Sakurun Ermənistan dövlətinin yürütdüyü siyasətin işğalçı və faşist mahiyyətini bir daha ifşa edən bu fikri Paşinyanı çaşdırdı. Qeyri-səlis ingiliscəsi ilə faktdan yayınmağa çalışan Paşinyanın sərsəm cavablarına verlişin aparıcısı dərhal müdaxilə edərək bildirdi: “Cənab baş nazir, lakin fəaliyyət sözlərdən daha güclü səslənir. Biz iyulun ortalarında gördük ki, Ermənistan silahlı qüvvələri sərhəd boyunca kəndlərə atəş açır. Azərbaycana istinadla biz gördük ki, 76 yaşlı mülki vətəndaş qətlə yetirildi. Əlbəttə ki, bundan sonra daha da uzanan hərbi toqquşmaya gətirib çıxaran cavab atəşi açıldı. Bir daha qeyd etmək istəyirəm ki, sizin siyasətiniz sülhün bərqərar olması üçün hesablanmayıb”.

Bu fikirləri Azərbaycan xalqının nümayəndəsi deyil, Beynəlxalq Yayım Dərnəyi tərəfindən 2010-cu ilin noyabr ayında “İlin Beynəlxalq Televiziya Şəxsiyyəti” seçilən, Malayziyanın Baş naziri Mahathir Mohamad və müxalifət lideri Ənvər İbrahim, İraq prezidenti Cəlal Talabani, Moldovanın baş naziri Iurie Leanca, ABŞ-ın vitse-prezidenti Albert Qor, ABŞ-ın keçmiş müdafiə katibi Robert Qeyts kimi tanınmış siyasi xadimlərlə maraqlı müsahibələri ilə yadda qalan dünyada çox məşhur olan BBC World News-in “Hard Talk” verilişinin aparıcısı Stiven Sakur bildirib. Stiven Sakurun “Artıq böyük ümidlərlə hakimiyyətə gəldiyiniz “böyük məxməri inqilab” adlanan inqilabdan iki il ötür. Mən bu gün Ermənistana baxanda görürəm ki, ermənilərin böyük əksəriyyətinin ümidləri puç olub. Səhv nədə oldu?” - sualı isə Ermənistanın baş nazirinin beynəlxalq aləmdəki “uğurlar”ına işğalçı ölkənin baş nazirinin çox sevdiyi durğu işarəsini - nöqtəni qoydu.

## Liseylərə elektron qeydiyyat başa çatıb



Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) tabeliyindəki liseylərin V siniflərinə qəbul üçün elektron qeydiyyat başa çatıb. BŞTİ-dən SİA-ya verilən məlumata görə, texniki-Humanitar Lisey, 2 nömrəli Texniki-Humanitar Lisey, 147 nömrəli Texniki-Humanitar Lisey və 291 nömrəli Ekologiya Liseyinin V siniflərinə www.sy.edu.az elektron sistemi vasitəsilə ümumilikdə 737 müraciət daxil olub.

Onlardan 339-u Texniki-Humanitar Liseyi, 85-i 2 nömrəli Texniki-Humanitar Liseyi, 163-ü 147 nömrəli Texniki-Humanitar Liseyi və 150-si 291 nömrəli Ekologiya Liseyini seçib. Qeyd edək ki, qeydiyyatdan keçirilən şagirdlər müvafiq liseylərə qəbul olunmaq üçün müsabiqədə iştirak edəcəklər. BŞTİ tərəfindən mərkəzləşdirilmiş qaydada təşkil olunacaq müsabiqədə şagirdlər ana dili, riyaziyyat və məntiqə aid test tapşırıqlarını yerinə yetirəcəklər. Müsabiqənin 25 avqust tarixində təşkil olunması nəzərdə tutulur.

# “Milli” yazıqlar...

## Sevinc Osmanqızı, özgənin yalı ilə bəslənənləri tarix heç vaxt bağışlamır

***Artıq bir müddətdir ki, Sevinc Osmanqızı canlı yayımlarında müxalifət düşərgəsinin təmsilçilərini, trollarını üz-üzə qoymaqla yanaşı, xalqı aşağılamaqdan da əl çəkmir. Onun bu satqınlığını, təhqirlərini unutmaq da olmur. Ənənəsinə sadiq qalan Sevinc Osmanqızının bu dəfə etdiyi təhqirin cəzası isə daha ağır olmalıdır. Çünki bu dəfəki təhqir birbaşa xalqımıza, dövlətimizə ünvanlanan təhqirdir. Bu heç bir halda haqq vermir ki, Sevinc Osmanqızı xalqımıza yönəlik təhqirlərə yol versin. Xalqı aşağılamaq, siyasi məqsədlər naminə dövlətinə, Vətəninə qarşı qarayaxma kampaniyası aparmaq heç bir mənəvi çərçivəyə sığmaz. Bu gün S.Osmanqızı pandemiya zamanıda özü kimi istifadə olunan satqınları “Osmanqızı TV”-yə dəvət etməklə qarayaxma kampaniyası aparmaqla bir daha nə qədə mənəviyyatsız olduğunu nümayiş etdirir.***



### Sevinc Osmanqızının çürük məntiqi...

Bu məntiqə görə eyni işi ABŞ görəndə yaxşı olur, Azərbaycan görəndə pis. Azərbaycanın tanınmış şairi Əhməd Cavadın təbirincə desək, xalqımızın haqq bağıran səsi olmalı, milli-dövlətçiliyimizin tərənnümçüsü və keşikçisi olmalıdır.

Təəssüflər olsun ki, Azərbaycandan xaricdə yaşayan heç də bütün soydaşlarımız ölkəmizin, xalqımızın, dövlətimizin tərənnümçüsü ola bilmirlər. Bir sıra hallarda bəzi soydaşlarımız xarici dairələrin təsiri altına düşür, təmsil olunduqları cəmiyyətlərdə Azərbaycan əleyhinə kampaniya aparır, ölkəmizin beynəlxalq nüfuzuna xələl gətirməyə çalışırlar. Tural sadıqlıları, orduxan teymurxanları, məhəmməd mirzəliləri, arif məmmədovları, emin milliləri, qurban məmmədovları və Avropaya sığınan, sonradan özlərini “demokrat”, “hüquq müdafiəçisi”, “blogger”, “siyasi mühacir” adlandıran bu antimilli ünsürlər ermənipərəst dairələrin, eləcə də erməni diaspor təşkilatlarının təsiri altında olan beynəlxalq təşkilatların sifarişi ilə əllərinə keçən hər fürsətdə ölkəmizə çamur atmağa çalışırlar. Sevinc Osmanqızı kimilər. O S.Osmanqızıdır ki, atası Osman Mirzəyev məhz Ermənistanın işğalçılıq siyasətinin, erməni separatizminin qurbanı olub. Ancaq bu gün atası ermənilər tərəfindən şəhid edilən S.Rsmanqızı düşmənə dəstək olur.

### Təəccüblü deyil...

Çünki satqın və istifadə olunanların anladıqları budur. Sevinc Osmanqızı Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəyli, Arif Məmmədov, Vidadi İskəndərli...kimiləri kanalına dəvət edərək Azərbaycan dövlətinin ünvanına şər, böhtanlar yağdırmaqla bir daha xislətini və gerçək üzünü göstərir. Bu təəccüb də doğurmur. Çünki bu o Sevinc Osmanqızıdır ki, illərdir ki, sosial şəbəkələrdə onun-bunun sifarişlərini canla-başla həyata keçirərək əvəzində filan qədər dollar, avro əldə etməklə, Vətəninin maraqlarını amerikan, ingilis və s. ölkələrin xəfiyyələrinə satmaqla məşğuldur. Əgər bir fərd ki, öz ailəsinə, soyadına qarşı xəyanət edirsə, ondan bütün rəzillikləri, riyakarlıqları, ləyaqətsizlikləri gözləmək də təəccüb doğurmur. Belə bir deyim var: “xəyanət ölümdən betər bir şeydir və bunu sadəcə anlamaq lazımdır”. Lakin Sevinc kimiləri üçün isə, xəyanət etmək ən adi bir məsələdir və onun bunu anlamağı isə...Bir də dərk etməyə onun nə əqli, nə də əxlaqı imkan vermir. Çünki illər boyu rusun, farsın, erməninin, ingilisin, amerikalının, norveçlinin maşası, quruqbulayanından ancaq bеə bir əxlaqsızlığı, mənəviyyatsızlığı gözləmək olar. Elə bədəxtlik də bundadır. S.Osmanqızı Vətəni bir evə dəyişən satqın iblisdir.

S.Osmanqızı aşırı qədər satqındır ki, hətta “20 Yanvar, 20 noyabr, Xocalı və xalqımızın başına gətirilən digər faciələrdə olanları bilmək haqqımız və borcumuz deyil” deyir. Doğurdan da, S.Osmanqızını, vəhşi, faşist adlandırsaq da belə bu çox yumuşaq çıxır. Çünki bu iblis Xocalı faciəsi ilə bağlı “olanları bilmək borcumuz və haqqımızdır” deyərkən, bir daha Sarkisyan, Paşinyan kimi vəhşi olduğunu sübut edir. Ancaq bu yerdə bir məqamı da vurğulamaq istərdim ki, Sarkisyan həmin hadisələr zamanı hətta belə bir etiraf edərək bildirmişdi ki, Xocalıda insanları bilə-bilə qırıblar. Artıq S.Osmanqızı kimilərə faktları sübut etməyə ehtiyac yoxdur. O bütün Azərbpycan xalqı qarşısında cavab verməlidir. S.Osmanqızı kimilərin beynəlxalq siyasi qüvvələr tərəfindən Azərbaycana qarşı istifadə olunan alətə çevrilən, erməni itinin yalağında yalağlananlar birhəqiqəti unutmamalıdırlar ki, Vətənin halal çörəyinə kəm baxanların gözünə qan gələr və özgənin (həm də düşmənin) yalı ilə bəslənənləri isə tarix heç vaxt bağışlanmır.

**Rəfiqə HÜSEYNOVA**

# Rusiyada müxalifət liderini zəhərləyiblər



Rusiya müxalifətinin lideri Aleksey Navalnı xəstəxanaya yerləşdirilib. Rusiya mətbuatı xəbər verir ki, bu barədə “Twitter”də siyasətçinin mətbuat katibi Kira Yarmış yazıb. “Bu gün səhər Navalnı Tomskdan Moskvaya qayıdırdı. Uçuş zamanı halı pisləşib. Təyyarə Omskda təcili eniş edib. Alekseydə toksik zəhərlənmə qeydə alınıb. Hazırda təcili tibbi yardım maşınında xəstəxanaya gedirik. Güman edirik ki, Alekseyin çayına nəsə qataraq onu zəhərləyiblər. Səhərdən bəri içdiyi yeganə şeydir. Həkimlər deyirlər ki, toksin qaynar maye vasitəsilə sürətlə hopub. Hazırda Aleksey huşsuzdur”, - K.Yarmış əlavə edib. “Zəhərlənən Navalnının vəziyyəti ağırdır. Tomskdan Moskvaya qayıdarkən zəhərləndiyi güman edilən Aleksey Navalnının vəziyyəti ağırdır”. Bunu TASS-a Omsk xəstəxanasından bildiriblər.

# Koronavirusa xas olan əsas əlamətlər açıqlandı




Koronavirusun dünyada qəbul olunan əsas əlamətləri qızdırma, quru öskürək və halsızlıqdır.SİA-nın məlumatına görə, bunu Mərkəzi Neftçilər Xəstəxanasının həkim-infeksionisti Fərrux Sədirov Nazirlər Kabineti yanında Operativ Qərargahın brifinqində deyib.

F.Sədirov bildirib ki, daha sonra gələn əlamətlər isə əzələ ağrıları, başağrıları, ürək bulanmaları, mədə-bağırsaq problemləri və digər əlamətlərdir. Onun sözlərinə görə, heç bir şikayət olmadığı halda dad və iy bilmə hissinin birdən-birə itməsi koronavirusa xas olan bir xarakterdir. Hətta bəzi ölkələrdə bu əlamətin olması virusun müsbət olması ehtimal kimi qəbul edilir.

# “Qolos Armenii”: “Ermənistanda cinayət artmaqdadır”

***“Yeni Ermənistan”-dakı hüquq-mühafizə orqanları Paşinyanın əlində itaətkar bir vasitə halına gəlib və birbaşa vəzifələrini yerinə yetirmək əvəzinə, yəni cinayətkarlıqla mübarizə aparmaq, vətəndaşların təhlükəsizliyini və qanun qaydalarını təmin etmək əvəzinə, onlar əsasən baş nazirin tapşırıqlarını yerinə yetirmək, siyasi rəqiblərini təqib etmək və istənilən etiraz aksiyalarını yatırmaqla məşğuldurlar. SİA Ermənistana məxsus aysor.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu barədə “Qolos Armenii” qəzeti yazır.***




Qəzet yazır ki, hüquq-mühafizə orqanlarının əməkdaşları nəhayət şifahi tarazlıq aktını tətbiq etməyi dayandırsınlar və səhv olduğumuzu konkret faktlarla sübut etsinlər. “Son iki ildə ölkədə cinayətkarlığın əhəmiyyəti dərəcədə artması məyus nəticələrə və ittihamlara haqq qazandırır. Beləliklə, bu vəziyyətdə Paşinyan və birbaşa baş nazirə tabe olan hüquq-mühafizə orqanları, əksini sübut edənə qədər mövcud, çox həyəcanverici vəziyyətdə onlar günahkar hesab ediləcək.

Bəlli səbəblərə görə, fövqəladə vəziyyətin ölkədə cinayət səviyyəsini ən azı azaltmağa imkan verəcəyi güman edilirdi. Ancaq bütün bu ümidlər bir növ Bermud Üçbucağında iz olmadan itdi. 2020-ci ilin birinci yarısında cinayətlərin sayı 13 003, 2019-cu ilin eyni dövründə 12.250 olub. Həmçinin, həm kiçik, həm də ağır cinayətlərdə artım qeydə alınıb.

Keçən ilin birinci yarısında odlu silah və döyüş sursatı ilə 37 cinayət baş vermişdisə, 2020-ci ildə bu rəqəm artıq 54-ə çatıb. Bu ilin birinci yarısında “İctimai təhlükəsizliyə və vətəndaşların sağlamlığına qarşı cinayətlər” adı altında cinayətlərin sayı 2112, ötən il isə 863 olub. Bu da ilin birinci yarısının 3, 5 ayının keçdiyi dövrdə baş verib. Polis tərəfindən patrul xidmətinin artırılması, yeri gəlmişkən, “xuliqanlıq” maddəsi altında olan qanunsuz hərəkətlərin artmasına səbəb olub. Ötən il qeydə alınan 129 işə qarşı bu il 168 belə cinayət qeydə alınıb. Bundan əlavə, silah tətbiq etməklə xuliqanlıq da getdikcə artıb. Ötən il 36 belə hadisə qeydə alınmışdısa bu il bu hadisələrin sayı 49 olub.

Fövqəladə vəziyyət fırıldaqçılığın artmasına da təsir göstərib. Bu ilin birinci yarısında 711 belə cinayət qeydə alınıb, halbuki 2019-cu ildə bu tip cinayətlər 594 sayda olub.

İndi əyləncəli hissəyə keçək. Beləki, 2020-ci ilin birinci yarısında 664 korrupsiya xarakterli cinayət qeydə alınıb, 2019-cu ildə bu göstərici 632 olub. Belə halların sayı artıb, lakin cinayət məsuliyyətinə cəlb olunanların sayı azalıb. Ötən il 71 nəfəri vəzifəli şəxslər olmaqla onlardan 415 nəfər, 2020-ci ilin birinci yarısında isə 53 nəfəri vəzifəli şəxslər olmaqla onlardan 329 nəfər qeydə alınıb. Bunu necə başa düşmək olar? Korrupsiya cinayətlərində şübhəli bilinən məmurların sayı azaldığı halda korrupsiya cinayətlərinin sayı necə artır?”, deyə qəzet yazır.

**İnam Hacıyev**

# "Belarus xalq nağılı" - Əlişka danışır, Güliçka eşidir...

**Onlara nə var ki, lazım olarsa, lap striptizə də keçərlər...**

Belarusda baş verən hadisələrin dərhal AXCP sədri Əli Kərimli tərəfindən özününküləşdirməklə həmin hadisələrin Azərbaycana da sirayət edəcəyi barədə danışdığı nağıl hələ də çoxsaylı dinləyici auditoriyası toplaya bilməyib. Uzaqbaşı onun nağıllarını dinləyənlər isə "Milli Şura"nın gözəlçəsi Gültəkin Hacıbəyli və bir-iki nəfər daha biriləri ola bilər...

Məsələ həm də ondadır ki, hətta uzaq Uqandada, yaxud Mozambikdə hər hansı narazı xalq kütləsi meydanlara tökülüşərsə, Əli Kərimli dərhal həmin ölkənin xalq nağılını özünəməxsus bəlağətlə danışmağa başlayır və...

Və həmin nağılın bir ucu mütləq və mütləq gəlib-bağlanır Azərbaycana. Hansı ki, Uqanda hara, Mozambik hara, biz hara!

**Niyə, nəyə görə və ya hansı məqsədə?**

İndi, keçmiş sovet respublikalarında baş verən məsələlər də cəbhəçi sədr tərəfindən mənimsənilir, özününkülüşəldirilir və nağıl qismində ictimai rəyə sırınır. Misal üçün, Belorusda baş verən olaylar kontekstində. Artıq AXCP sədri bir neçə günlərdir ki, "Belarus xalq nağılı" danışır. Amma kimə, niyə, nəyə görə və ya hansı məqsədə?

Kimə və ya kimlərə danışdığı bəllidir zatən...

* * *

Niyə? Çünki bu adam çayxana və küçə müxalifətidir və düşünür ki, küçələrdə hələ də 90-cı illərdir, o siyasi veyillənmələr, hay-küylər vasitəsi ilə hakimiyyətə-filana gələcək.

***

Nəyə görə? Ona görə ki, tin və dalanlarda bağırıb-ictimai sabitliyi pozarsa, həbslər baş verəcək və o, bu həbslərdən həm maddi, həm də siyasi mənfəətlərini güdərək xal toplayacaq.

* * *

Hansı məqsədlə? O məqsədlə ki, belə tapşırıq alıb ağalarından və boynuna götürdüyü öhdəliyi yerinə yetirə bilməsə, bu dəfə birdəfəlik əli hər şeydən üzüləcək.

Ona görə də başlayıb belorussayağı nağıllardan dəm vurmağa ki, bəs 30 illik arzusu Allah eləməmiş çin olmaq üzrədir. Amma türk jarqonu ilə desək, nahhh!



**Əli Kərimlinin nə vecinədir ki, belorus xalqının aqibəti necə olacaq!**

Nə etsin biçarə? Özünün utopiya və əfsanələrinə necə inanırsa, eləcə də belarusların nağıllarına da o sayaq inanır. Amma haraya qədər? Bir vaxtlar Gürcüstanda "qızılgül inqilabı" deyilən siyasi dəyişiklik baş verdi, həmin vaxt Əli Kərimli "gürcü nağılı" danışmaq eşqinə düşdü, ardınca Ukraynada maydan hərəkatları baş qaldırdı və AXCP sədri döndü oldu "xlopes", başladı xaxolsayağı düşünməyə, sonra ərəb baharının özəyi sayılan Tunis məsələsi çıxdı ortaya. Əli Kərimli ərəbsayağı "min bir gecə" nağılını qoşdu və özünü yandırmağa göyərtisatan axtardı, amma tapa bilmədi. Hansı göyərtisatan ağlını itirərək, bu cür utopik xəyalpərəstin nağıllarına inanar və gedib özünü yandırar ki? Axı hansı ağıllı fərd istəyər ki, onun ölkəsi Suriyaya, Yəmənə, İraqa dönsün?! Hətta Əli Kərimlinin özü də yaxşı dərk edir ki, əgər Belorusda Qərbin, Sorosun və s. fondların sifarişlərini həyata keçirən "müxalifət" hakimiyyətə yiyələnərsə, həmin ölkənin iqtisadiyyatından tutmuş, milli təhlükəsizliyinə qədər hər şey məhv olar. Bu baxımdan, Əli Kərimli heç də belorus xalqına yanmır, sadəcə, özünü yanan kimi göstərir, yoxsa ki, onun nə vecinədir!

**Hətta aradabir qol-qola girib, belarus havaları da oynayırlar**

Bax, beləcə illər ötür və nəhayət gün gəlib-çatır dost Belarus xalına. Amma belaruslar da bir ağızdan küçələrə çıxmayıblar. İndi bu ölkədə hakimiyyətə dəstək verənlər də kifayət qədər çoxdur və belə davam edərsə, belarusların küçəbaca söhbətləri də sönüşmək üzrədir. Kimdir ki nağıllara inanan? Əlbəttə ki, heç kim!

Bir neçə inananlar varsa da, bayaq yazdığım kimi, onların başında Gültəkin Hacıbəyli dayanır. Necə deyərlər, Əlişka nağıl danışır, Güliçka isə həvəslə qulaq asır. Hətta aradabir qol-qola girib, belarus havaları da oynayırlar. Onlara nə var ki, lazım olarsa, lap striptizə də keçərlər...

*Rövşən NURƏDDİNOĞLU*

# Rəzil və çirkin rolların oyunçuları....

*Yaxud satqınlar yuvası olan "Milli Şura"-nın məqsədi...*

Özünü "demokratik qüvvələrin" "Milli Şura"sı adlandıran qurumun ardıcıl olaraq keçirdikləri şou "iclasları" ancaq qeybət formatında davam etdirməklə günlərini başa vururlar. Və bununla da, guya siyasi meydanda "siyasi fəaliyyət" göstərdiklərini bildirirlər. Pandemiya başlayandan bu günə qədər də dəfələrlə videokonfrans keçirən "Milli Şura" müxtəlif proseslərə reaksiya verərkən Azərbaycanın zəifləməsini və inkişafdan geri qalmasını istədiklərini bəyan edirlər. "Xalq yanğısı" adı altında bu çirkablı qurum dünya bazarlarında neftin qiyməti ucuzlaşanda onlar sevindilər, pandemiya ilə əlaqədar xüsusi karantin rejiminin uzadıldı, onu sevinclə qarşıladılar, işğalçı düşmən ölkə tərəfindən təxribatlar etdi əl götürüb oynadılar və daha nələr, nələr... Onlar düşünürlər ki, belə olduğu təqdirdə sanki onların xeyirinə nələrsə dəyişəcək. Ancaq onlar unudurlar ki, Azərbaycan hökuməti və dövləti pandemiya başlayan gündən xalqın sağlığını düşünərək, bütün gücünü səfərbər edib.

Bu xəstə təxəyyüllü deməqoq yuvasının iylənmiş sakinləri anelamırlar ki, karantin rejimin uzadılmasında ancaq bir məqsəd var, vətəndaşların sağlamlığını qorumaq. Və vətəndaşlarımız karantin qaydalarına bu günə kimi riayət etdikləri kimi yenə də qaydalara əməl edəcəklər və müsbət dinamika davam edəcək, avqustun 31-dən sonra bu uzadılma baş verməyəcək, Əli Kərimli, Cəmil Həsənli, Sevinc Osmanqızı, Vidadi İskəndərli, Arif Məmmədov və bu kimi satqınların istəkləri də, sevincləri də ürəyində qalacaq. Çünki Azərbaycan dövləri çox güclü dövlətdir. Bizim gücümüz çatır ki, istənilən ağır şəraitdə xalqımızı, dövlətimizi qoruyaq, necə ki, bu günə kimi bu edilib, bundan sonra da ediləcək.



**Rəhim Qəmbərov: "Onlar dövlətimizin imicinə kölgə salmaq istəyidir"**

"Dövlətin koronavirusla mübarizə apardığı və hətta müxalifət partiya rəhbərlərinin də bu mübarizədə iqtidara dəstək olduğu bir vaxtda düşmən dəyirmanına su tökən bəzi "sapı özümüzdən olan balta"lar öz çirkin əməllərindən əl çəkmirlər. Onlar ölkədə yaranmış gərginliyə siyasi don geyindirməklə dövlətimizin imicinə kölgə salmaq istəyrlər".

Bunu Müasir Müsavat Partiyasının Nərimanov rayon təşkilatının sədri Rəhim Qəmbərov bildirərək onu da deyib ki, təbii olaraq koronavirus təhlükəsi, karantin rejimi insanları yorur, psixolojisini pozur: "Kimin nə problemi varsa sanki karantin rejimi olduğu bir vaxtda qalıbmış kimi məhz bu ərəfələrdə narazılıq etməyə başlayıblar. Bir-iki adını müxalifət qoymuş adamlar da onları danışdırıb çəkir, sonra sosial şəbəkələrdə yayırlar ki, bəs dövlət başçısı öz vətəndaşının qayğısına qalmır. Soruşuram, necə qalmır ki, az qala bütün xəstəxanaları koronavirus xəstələri üçün ayrılmasına göstəriş verir, xüsusi xəstəxanalar açdırır, imkansız insanları dövlət yardımı ilə təmin edir? Bu qədər də insafsızlıq, naşükürlük olmaz axı. Dövlət öz vətəndaşlarını bu pandemiya bəlasından az itkiylə çıxarmaq istəyir. Buna görə vacib bilinən bütün tədbirləri görür. Bəs insanlarımız neyniyir? Nə tibbi qaydalara əməl edirlər, nə də karantin qadağalarına".

R.Qəmbərovun sözlərinə görə, bu azmış kimi burdakı havadarlarının sayəsində xaricdə sığınacaq tapıb oradan Azərbaycan əleyhinə çıxışlar edən bir neçə dələduz da bir tərəfdən insanları çaşdırır: "Milli Şura" deyilən guya bir qurum var, özü bura yığışanların hamısı ağıldankəm. Belə olan halda bu ağıldankəmlərin utanmadan guya "problem" həll etdiklərini bildirirlər. Bu adamlar (adam demək mümkünsə) öz davranışlarındakı, danışıqlarındakı anormallığı nümayiş etdirməkdən başqa heç nə etmədikləri halda, hansı problem həll edəcəklər. Bu yerdə bir atalar sözünü xatırlatmaq istərdim "keçəl dərman bilsə...".

Göründüyü kimi, öz xalqına, millətinə, vətəndaşına, dövlətinə bundan da artıq düşmən kəsilmək olarmı? Xalqının, millətinin, vətəndaşının və dövlətinin güzəranının pisləşməsinə sevinənlərin, ondan öz məqsədləri, öz təbliğatları üçün istifadə edənlərin bir adı ola bilər - Xalq düşmənləri!!!

*R.HÜSEYNOVA*

# Təhmasib Novruzov: "Müxalifət xain şüarlar irəli sürür"



***Pandemeyanı bir fürsət bilən, bəzi dağıdıcı müxalif partiya sədrləri keçirdikləri onlayn görüşlərdə insanların heysiyyantına toxunan, dövlətin həyata keçirdiyi koronavirusla bağlı mübarizə tədbirlərinə kölgə salmağa hesablanan açıqlamalarla çıxış edirlər. Bununla yanaşı, üzdəniraq məxluqlar sosial şəbəkələrdə təxribat, pozucu xarakterli paylaşmalar edir, statuslar paylaşırlar. Pandemiya dövründə müxaliflərin şər və böhtanlarla çıxış etmələri, xəyanətdən başqa bir şey deyil.***

"Azadlıq Hərəkatçıları" Birliyinin sədri Təhmasib Novruzov "Səs" qəzetinə açıqlamasında bildirdi ki, Azərbaycanda belə iyrənc üsullarla maraqlarının təmin olunmasına cəhd edilməsi ilk deyil: "Xatırlayırsınızsa, 1991-1992-ci illərdən başlayaraq indiki arxiv qoxulu müxalif siyasi qüvvələr "Qarabağda dörd-beş kənd verək, Mütəllibovu istefaya göndərək" kimi xain bir şüar irəli sürmüşdülər. Sonrakı dönəmlərdə anti-Azərbaycan qüvvələrin yaratdıqları xaosdan sevinib, ondan yararlanmaq istəmişdilər. Hər dəfə də xalqın göstərdiyi dirsək gözlərini tökdüb. İkinci bir məqam isə ondan ibarətdir ki, hər dəfə hansısa bir ölkədə inqilab baş verirsə, onu bizim siyasi müxaliflərimiz təqlid etməyə can atırlar. Ukraynada, Gürcüstanda, Fransada baş verənləri, ruslar demiş " kopirovka" eləyib Azərbaycanda da eyni ssenari ilə hərəkətə keçməyə can atıblar".

T.Novruzovun sözlərinə görə, hazırda dağıdıcı müxalifəti qarayaxma kampaniyasını genişləndirməyə ruhlandıran, Belarusda, Xabarovskda baş verənlərdir: "Eyforiya bunların ən boyük bədbəxliklərindəndir. Belə siyasi mübarizənin nə xalqa, nə cəmiyyətə, nə də dövlətə xeyri dəymir, əksinə, həm özlərini tamamilə rüsvay edir, həm də dövlətin imicinə mənfi təsir göstərir. Dövlət, xalq mənafeyi güdməyən belə müxalifət cəmiyyətdə hər zaman məglubiyyətə məhkumdur. Yaşadığımız dövrdə bunun dəfələrlə şahidi olmuşuq, yenə belə olacağına şübhə yoxdur".

*Gülyana*

***Ölkəyə rəhbərlik etdiyi bütün dövrlərdə millətin gələcəyinə, təhsilin, səhiyyənin, iqtisadiyyatın, mədəniyyətin hərtərəfli inkişafına həmişə qayğı ilə yanaşan ümummilli lider Heydər Əliyev ailənin cəmiyyətdəki rolunu xüsusi olaraq qeyd edirdi: "Ailə dəyərləri, ailə ənənələri, milli-mənəvi dəyərlərimizə sədaqət, uşaqların müasir səviyyədə tərbiyəsi mühüm əhəmiyyət kəsb edir".***

# Ulu Öndər Heydər Əliyev və ailə dəyərləri

Ulu Öndər heç bir Azərbaycan ailəsinin taleyinə laqeyd qala bilmirdi. O, Azərbaycanda ailə adətlərimizin ləyaqətlə davam etdirilməsi üçün hər cür imkan və şərait yaradır, bu işdə dəstəyini xalqdan əsirgəmirdi. Azərbaycana rəhbərlik etdiyi hər bir dövrdə çoxuşaqlı və aztəminatlı ailələrə, əmək qəhrəmanlarının ailələrinə xüsusi qayğı göstərir, onların övladlarının təhsilini nəzarətdə saxlayırdı. Ailəni, ailə münasibətlərini son dərəcə yüksək dəyərləndirən Heydər Əliyev hesab edirdi ki, cəmiyyətdəki qarşılıqlı münasibətlərdə olduğu kimi, ailədə də hər bir insan özünəməxsus statusu, qayda-qanunu, əlaqələri və prinsipləri gözləməyə borcludur. Hər bir ailə üzvü öhdəsinə düşən funksiyaları yerinə yetirməli, ailənin rifahı üçün bütün bacardığını etməli, hamıya hörmət və qayğı göstərməli, ailənin sevincini və kədərini birgə yaşamalı, bu sahədə mövcud olan ümumi ənənə və qaydalara tam riayət etməlidir. Çünki ailə olmasa, cəmiyyət də inkişaf edə bilməz. Cəmiyyətin inkişafı ailələrin inkişafından asılıdır. Ailə İnstitutunun möhkəmliyi cəmiyyətin və dövlətin güclənməsinə və inkişafına gətirib çıxarır.

Azərbaycanın Ümummilli lideri Heydər Əliyevin tariximizdə silinməz iz qoyan nəsil şəcərəsi, eləcə də özünün nümunəvi ailə tarixçəsi, onun müqəddəs ocağının davamçıları - Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın ailəsi də cəmiyyətimizə, xüsusən də gənclərimizə böyük örnəkdir. Tarixi xidmətlərinə görə bütün dünyada layiqli hörmət və böyük nüfuz qazanmış Heydər Əliyev siyasi aləmdəki uğurlarının arxasında hər zaman ailəsinin dayandığını bildirirdi. Söz yox ki, nəhəng şəxsiyyətlərin arxasında böyük qadınlar dayanır. Ulu öndər Heydər Əliyev öz xatirələrində qeyd edirdi: "...Gənc yaşlarımdan mənim həyatım dövlət işi ilə bağlı olubdur. Mən bütün həyatımı buna sərf etmişəm və bu gün də bu yolda çalışıram. Bu yolda mənim həmişə səmərəli, müvəffəqiyyətlə çalışmağımda, hesab edirəm ki, ailə vəziyyətimin rolu böyük olub. Zərifə xanım kimi həyat yoldaşım olduğuna və o, ailəmdə çox yüksək mənəvi mühit yaratdığına görə mən xoşbəxt olmuşam. Həyatımın bütün dövrlərində işlə məşğul olduğuma görə ailə məsələlərinə fikir verməyə vaxtım olmayıb. Bunların hamısı Zərifə xanımın üzərinə düşüb və o da bu vəzifəni şərəflə, sədaqətlə, çox böyük məharətlə yerinə yetirib...".

Çağdaş dünyanın qlobal problemlərindən biri də sosial-mənəvi, mədəni-milli mühitin saflığının qorunmasıdır. Bu baxımdan ailə istər şəxsiyyət, istərsə də bütövlükdə cəmiyyət üçün əhəmiyyəti artmaqda olan ümumbəşəri dəyər, mədəni irs, əxlaqi norma və qaydaların ötürücüsü rolunu oynayır. Bir sıra alimlər təsdiq edir ki, dövrümüzdə insanların ailəyə olan tələbatı azalmışdır, ailə sivilizasiyanın təsiri altında birgəyaşayışın liberal formalarına doğru təkamül edir. Lakin bir çox sosioloji tədqiqatlar göstərir ki, əksinə, müasir insan üçün ailənin, uşaqların, evin, maddi rifah halının, asudə vaxtın dəyərləri çox artmışdır. Günü bu gün də bəşəriyyətin diqqətində olan bu problemlə bağlı müxtəlif müzakirələr aparılır, çağırışlar edilir...

Hər zaman belə olubdur ki, istənilən bir xalqın, yaxud millətin tarix səhnəsində varlığı onun doğma dilinə, milli adət-ənənələrinə, özünə məxsüs etnik mədəniyyətinə sıx bağlılığından asılıdır. O cəhətdən Azərbaycan xalqının çox gözəl və zəngin milli ailə ənənələri, məişət sistemi var. Həmin ailə ənənələri sədaqət, qarşılıqlı məhəbbət, dürüstlük, valideynə, böyüyə hörmət, tolerantlıq kimi zəngin və çoxşaxəli xüsusiyyətlərə malikdir.

Fasilələrlə 1969-cu ildən Azərbaycan Respublikasına rəhbərlik etdiyi dövrlərdə çoxuşaqlı və aztəminatlı, eyni zamanda müharibə və əmək qəhrəmanlarının ailələrinə xüsusi qayğı göstərən, onların övladlarının təhsilini nəzarətdə saxlayan, ailə münasibətlərini son dərəcə yüksək dəyərləndirən Heydər Əliyev hesab edirdi ki, cəmiyyətdəki qarşılıqlı münasibətlərdə olduğu kimi, ailədə də hər bir insan özünəməxsus statusa, qayda-qanuna, əlaqələrə və prinsiplərə riayət etməlidir. Hər bir ailə üzvü öhdəsinə düşən funksiyaları yerinə yetirməli, ailənin rifahı üçün bacardığını etməli, ailə üzvlərinə hörmət və qayğı göstərməli, ailənin sevincini və kədərini birgə yaşamalı, bu sahədə mövcud olan ümumi ənənə və qaydalara sadiq olmalıdır.

Axı dövlətin kiçik modeli - forması sayılan milli ailə olmasa, cəmiyyət də inkişaf edə bilməz. Prezident İlham Əliyev də Ümummilli liderimizin bu tarixi missiyasını davam etdirərək Azərbaycan ailə ənənlərinin qorunub saxlanmasına xüsusi diqqət ayırır.

Sözün hər mənasında müstəqil dövlətimizin Əsas Qanunun - Konstitusiyanın müəllifi olan Heydər Əliyev burada ailənin mahiyyətini, ailə üzvlərinin vəzifə və hüquqlarını da xüsusi maddələrlə müəyyən etmişdir. Heydər Əliyev ailədə sağlam uşaqların doğulması, eləcə də narahatlıq doğuran məsələlərdən biri kimi qan qohumluğunun qarşısının alınması istiqamətində xüsusi fəallıq göstərir, tibb işçilərinə göstərişlər verir və ən müxtəlif səviyyələrdə müzakirələr aparırdı. O, 1995-ci ildə Respublika Ailə-Sağlamlıq Mərkəzinin açılışında çıxış edərkən qan qohumluğu evliliyi və onun fəsadları barədə deyirdi: "...Bizim xalqımızın, millətimizin həm fiziki, həm zehni cəhətdən sağlamlığı üçün yaranan problem qohumların birbiri ilə ailə qurmasıdır. Təəssüf ki, bu, bizim millətimizin, xalqımızın qədimlərdən qalmış ənənəsidir.

Biz ənənə və adətlərimizin çoxuna hörmət bəsləyirik, onları inkişaf etdiririk və inkişaf etdirməliyik. Amma o adətlər, o ənənələr insan üçün, cəmiyyət üçün zərərlidirsə, biz onlardan xilas olmalıyıq, imtina etməliyik. Bax, bu adətənənələrdən biri də keçmişdən bizə miras qalmış, millətimizə xas olan adət - qohumların evlənməsi, ailə qurmasıdır. Siz, tibb işçiləri və alimləri bunun həm ailələr üçün, həm də, ümumiyyətlə, millətimizin gələcəyi üçün nə qədər zərərli olduğunu bilirsiniz. Amma nədənsə bu sahədə ciddi tədbirlər görülmür. Belə bir adət-ənənənin zərərli olduğu insanlara çatdırılmır, izah edilmir, bu sahədə lazımi profilaktik işlər, yəni izahat işləri aparılmır. Məhz bunların nəticəsində, - yəqin ki, siz bu sahədə tədqiqatlar aparmısınız, bilirsiniz, - çox adamlar anadangəlmə şikəst olur, yaxud əqli cəhətdən inkişaf etmir. Beləbləri yaşasalar da, fiziki cəhətdən çatışmazlıq onları həmişə incidir".

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva qadınların problemlərinə, onların ictimai həyatda aktiv rolunun təmin edilməsinə böyük qayğı ilə yanaşır. Məhz "Məişət zorakılığının qarşısının alınması haqqında" qanunun qəbul olunmasında Mehriban xanım Əliyevanın xüsusi təşəbbüsü olmuşdur. Azərbaycanın tərəqqisi və xalqımızın rifahı naminə Ümummilli lider Heydər Əliyevin zəngin irsindən bəhrələnərək, genişmiqyaslı proqram və layihələrin reallaşmasına dəstək üçün yaradılan Heydər Əliyev Fondu bu missiyanı şərəflə həyata keçirir. Artıq 10 ildən çox fəaliyyət göstərən Heydər Əliyev Fondu təhsil, səhiyyə, mədəniyyət, idman, elm və texnologiya, ekologiya, sosial və digər sahələrdə müxtəlif layihələri reallaşdıraraq yeni cəmiyyət quruculuğunda fəal iştirak edir, ölkənin sosial-iqtisadi inkişafına öz töhfəsini verir...

Görkəmli ictimai-siyasi xadim Heydər Əliyev ailədaxili münasibətləri cəmiyyətdaxili münasibətlərin güzgüsü hesab edir, bu prinsipləri özünün siyasi təcrübəsində də tətbiq etməyə çalışırdı. Bu baxımdan o, ailədə və cəmiyyətdə xüsusi yeri olan qadın və uşaqların hüquqlarının müdafiə olunmasını zəruri hesab edirdi. O deyirdi: "Qadınlar dövlətimizin, dövlətçiliyimizin, müstəqilliyimizin, bugünümüzün, gələcəyimizin dayağıdır". Qürurla qeyd edə bilərik ki, Azərbaycan ailəsində qadının yeri və rolu xüsusi əhəmiyyət daşıyır. Azərbaycan qadını yeni nəsli dünyaya gətirmək, onu tərbiyə etmək, vətənə layiq böyütmək kimi çox vacib bir vəzifəni yerinə yetirməklə bərabər, ailənin möhkəmliyi və bütövlüyünün qorunması məsuliyyətini də könüllü surətdə daşıyır. Bizim qadınlarımız istənilən sahədə uğur qazanmaqla yanaşı, çox gözəl ailə sahibi olmağı və vətənə layiqli vətəndaşlar yetişdirməyi bacarırlar. Azərbaycan qadını öz fəaliyyətini maarifçilik və xeyriyyəçilik ideyalarının yayılmasından başlayaraq, mədəni, dini, milli-mənəvi dəyər və ənənələri də nəzərə almaqla davam etdirir. Bu qadınlar bütün tarixi dövrlərdə ictimai həyatda fəal iştirak edərək, cəmiyyətimizin inkişafına öz töhfələrini vermişlər.

Ötən əsrin 90-cı illərində ailənin möhkəmləndirilməsinə, qadın və uşaq hüquqlarının müdafiəsi sahəsində ulu öndər Heydər Əliyevin təşəbbüsü, dəstəyi əsasında Azərbaycan Respublikası mühüm beynəlxalq Konvensiyalara qoşulmuş və ölkəmizdə bir sıra müvafiq qanunlar qəbul edilmişdir. Azərbaycan Respublikası BƏT-in "Kişi və qadın işçilər - ailə vəzifələri olan işçilər üçün bərabər imkanlar və bərabər rəftar haqqında" 156 nömrəli, BMT-nin "Qadınlar barəsində ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında", "Uşaq Hüquqları haqqında", "Ölkələrarası övladlığa götürmə ilə bağlı uşaqların müdafiəsi və əməkdaşlıq haqqında", "Uşaqların kənd təsərrüfatında işə buraxılmasının minimum yaşı haqqında", "Uşaq əməyinin ən pis formalarının qadağan edilməsinə və onların aradan qaldırılması üçün təcili tədbirlərə dair" və digər Konvensiyalara qoşulmuşdur. Dövlət tərəfindən ratifikasiya edilmiş konvensiyalara əsasən daxili qanunvericilikdə mühüm islahatlar aparılmışdır. "Ailə kəndli təsərrüfatı haqqında", "Uşaq hüquqları haqqında", "Əlilliyin və uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsi haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında", "Uşaqların icbari dispanserizasiyası haqqında", BMT-nin "Transmilli mütəşəkkil cinayətkarlığa qarşı" Konvensiyasının, onu tamamlayan "İnsan alverinin, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması haqqında" və "Miqrantların quru, dəniz və hava ilə sərhəddən qanunsuz keçirilməsinə qarşı" Protokolların təsdiq edilməsi barədə, "Ərdə olan qadının vətəndaşlığı haqqında" "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" "Ahıllara sosial xidmət haqqında" "Nikahdan kənar doğulmuş uşaqların hüquqi statusu haqqında" "Uşaqlı ailələrin sosial müdafiəsi haqqında" və digər qanunlar qəbul edilmişdir. Müstəqil dövlətimizin ali sənədində müəllifi Heydər Əliyev olan Konstitusiyamızda da ailənin mahiyyəti, ailə üzvlərinin vəzifə və hüquqları xüsusi maddələrlə müəyyən edilmişdir. Eləcə də 2000-ci ildə Ailə Məcəlləsinin qəbul olunması ailə üzvlərinin digər hüquq və vəzifələri ilə yanaşı, mülki hüquqları da təsbit olunmuşdur.

***Vahid Ömərov f.ü.f.d.,dos.***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb.*

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

22 avqust

Son səhifə




## Henrik Larsson yenidən "Barselona"da

"Barselona"nın yeni baş məşqçisi Ronald Kumanın köməkçiləri məlum olub. Katalon klubunun rəsmi saytında yer alan məlumatda deyilir ki, Henrik Larsson və Alfred Şroyder Kataloniya təmsilçisində məşqçi kimi çalışacaqlar. Onların hər ikisi ilə 2022-ci ilin yayına qədər müqavilə imzalanıb.

Qeyd edək ki, İsveç futbolunun canlı əfsanəsi Henrik Larsson 2004-2006-cı illərdə "Barselona"da çıxış edib. Niderlandlı Şroyder isə son olaraq (2019-2020 mövsümü) Almaniyanın "Hoffenhaym" klubunu çalışdırıb.

## Qarındakı piyləri əritmək üçün ən faydalı qidalar



Alimlər qarında zərərli intuitiv piylərin parçalanmasına səbəb olan və bağırsaqların işini yaxşılaşdıran məhsulların siyahısını açıqlayıblar. Həmin siyahıya 20-dən çox məhsulun adı daxil edilib.

AZƏRTAC mail.ru saytına istinadla xəbər verir ki, qarın nahiyəsində piylə mübarizə aparmaq üçün mütəxəssislər paxlalı bitkilərdən, lobya, noxud, bişmiş kartof, qulançar, balqabaq, yumurta, avokado və gül kələmindən istifadə etməyi məsləhət görürlər. Həmin məhsullar kalium, antibiotik, zülal və sinklə zəngindir və onlarla qidalanmaq immuniteti yüksəldir, tezdoyma hissi yaradır.

Həmçinin şişman qarınla mübarizədə yaşıl banan, qəhvə və çaydan istifadə etməyin də faydalı olduğu bildirilir. Onlar, sitrus, süd və ağartı məhsulları kimi həzm prosesinin yaxşılaşmasına kömək edir. Qoz, fındıq, badam və püstə də orqanizmə eyni təsir göstərir.

Soğan, zeytun yağı, yulaf, pomidor, qızıl balıq və tuna balığı minerallar və D vitamini ilə zəngin olduğuna görə çəki itirməyə kömək edir. Lakin alimlər onu da müəyyən ediblər ki, yalnız idman məşğələləri ilə qarın piyindən qurtulmaq mümkün deyil. Həmin məşğələlərlə birlikdə arıqlamağa səbəb olan qidaların qəbul edilməsi normal çəkiyə sahib olmaqda əsas vasitələrdən biri olmalıdır.

## Dünyaca məşhur ulduz atasını məhkəməyə verdi

B.Spirs 2008-ci ildən bəri atasının himayəsindədir. Məhkəmə ağır əsəb pozğunluğu keçirən müğənnini valideyninin himayəsinə vermək barədə hökm çıxarıb. Dünyaca məşhur ifaçı Britni Spirs atasının himayəsindən çıxmaq tələbi ilə məhkəməyə müraciət edib. Məşhur ulduzun pərəstişkarları isə müğənnin atasının himayəsindən azad edilməsini və sərbəst yaşamaq hüququnun qaytarılmasını tələb edir. #FreeBritney haştaqı ilə başladılan kampaniyaya müğənninin minlərlə pərəstişkarı dəstək verib.

Xatırladaq ki, B.Spirs 2008-ci ildən bəri atasının himayəsindədir. Məhkəmə ağır əsəb pozğunluğu keçirən müğənnini valideyninin himayəsinə vermək barədə hökm çıxarıb. Britninin vəkili qəyyum statusunun Ceymi Spirsə qaytarılmasının əleyhinədir və məhkəmədən ulduzun atasını əmlakına sərəncam vermək hüququndan məhrum etməsini xahiş edib.




Qeyd edək ki, 2007-ci ildə həyat yoldaşı Kevin Federlayn ilə boşanan müğənni depressiyaya düşərək içkiyə və gecə həyatına başlamışdı. Buna görə də Kevin və Britninin izdivacından doğulan 2 uşaq məhkəmə tərəfindən atalarına verilmişdi. Daha sonra isə narkotik səbəbindən 2008-ci ildə bir neçə dəfə xəstəxanaya yerləşdirilən Spirsin psixi sağlamlığı daha da pisləşmişdi.

## Cibgirlik edən qadın ələ keçdi



Oğurluq etdiyinə görə tutulmuş S.Quliyevanın digər iki analoji cinayət hadisəsini də törətməsi müəyyən edilib. Daxili İşlər Nazirliyindən SİA-ya verilən xəbərə görə, Nərimanov RPİ 16-cı PB-nin əməkdaşları tərəfindən oğurluq etdiyinə görə tutulmuş S.Quliyevanın ətrafında aparılmış əməliyyat tədbirləri ilə onun Ə.Həsənzadənin içərisində pul və bank kartları olan pulqabısını və S.Abuşovanın çantasından 100 manat pul oğurlaması da müəyyən edilib.

## "Mançester Yunayted"in kapitanı saxlanıldı



"Mançester Yunayted"in kapitanı Harri Maquayr saxlanılıb. Qol.az xəbər verir ki, İngiltərə millisinin üzvü Yunanıstanın Mikonose şəhərində bir barda dalaşıb. Bu barədə "Protothema" nəşri məlumat yayıb. Müdafiəçi və iki dostunun barda digər ingilislərlə dalaşdığı bildirilib. Daha sonra hadisə yerinə gələn polisə də müqavimət göstərən Maquayr və dostları saxlanılıb.

## Tarkan KEÇMİŞƏ qayıtdı



Türkiyənin meqastarı Tarkan sosial mediada maraqlı paylaşım edib. Tarkan 90-cı illərdə çəkilən fotosunu izləyiciləri ilə bölüşüb. O həmçinin paylaşımında bunları qeyd edib: "Paris-də olduğum zamanlardakı foto-sessiyadan... Çox əyləncəli və ağappaq çəkiliş idi". İzləyicilərinə nostalji hisslər yaşadan Tarkanın bu paylaşımı çox bəyənilib. Onlar yeni albom gözlədiklərini rəy bölümündə bildiriblər.

## Cəlilabad sakinindən silah tapıldı



Cəlilabad rayon sakini S.İsayevdən tapança, 5 ədəd patron və 1 ədəd patron darağı götürülüb. Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində Cəlilabad rayon sakini, əvvəllər məhkum olunmuş S.İsayev saxlanılıb. Şəxsi axtarış zamanı ondan "Steyr" markalı tapança, 5 ədəd patron və 1 ədəd patron darağı aşkar edilərək götürülüb.

## Keçmiş məhkum avtomobildən oğurluq etdi



Binəqədi rayonu ərazisində "Kia" markalı avtomobildən oğurluq etməkdə şübhəli bilinən Neftçala rayon sakini A.Abdullayev saxlanılıb. Daxili İşlər Nazirliyindən SİA-ya verilən xəbərə görə, Binəqədi RPİ 5-ci PB əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində T.Cavadova məxsus "Kia" markalı avtomobildən sənədlər, 280 manat dəyərində 3 ədəd eynək və 2 ədəd yaddaş kartı oğurlamaqda şübhəli bilinən Neftçala rayon sakini, əvvəllər məhkum olunmuş A.Abdullayev saxlanılıb.


*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**